**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA SEKTORİAL İNKİŞAF İSTİQAMƏTLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ MALİYYƏLƏŞMƏ MEXANİZMİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Qasımzadə Nail İbrahim**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**______________________imza**

**"___" __________ 2022-ci il**

# "İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA SEKTORİAL İNKİŞAF İSTİQAMƏTLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ MALİYYƏLƏŞMƏ MEXANİZMİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403 – Maliyyə

**İxtisaslaşma:** "Maliyyə menecmenti"

**Qrup:** 646

**Magistrant:**

**Qasımzadə Nail İbrahim oğlu**

**______________________ imza**

**Elmi Rəhbər:**

**i.f.d. dos. Musayev Gəray Cümşüd**

**______________________ imza**

**Proqram Rəhbəri:**

**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**

**______________________ imza**

**Kafedra Müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________ imza**

**BAKI - 2022**

## Elm andı

Mən, Qasımzadə Nail İbrahim oğlu and içirəm ki, “İşğaldan azad edilmiş rayonlarda sektorial inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və maliyyələşmə mexanizmi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA SEKTORİAL İNKİŞAF İSTİQAMƏTLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ VƏ MALİYYƏLƏŞMƏ MEXANİZMİ”**

## XÜLASƏ


**Tədqiqatın aktuallığı:** Tərəflər öz imkanları, təcrübələri, planlaşdırma və maliyyələşdirmə mexanizmləri, metodologiyaları və empirik məlumatları ilə yaradıcı və ixtiraçı olmalıdırlar. Bu baxımdan, işğaldan azad edilmiş rayonların fundamental məsələlərində geniş konsensusa girmək lazımdır. Mövzunun aktuallığı işğaldan azad edilmiş rayonlarda sektorial inkişaf üçün maliyyələşmə mexanizmi tətbiqini müzakirəsindən ibarətdir.

**Tədqiqatın məqsədi:** Elmi araşdırmalar aparıb, onların təhlillərinə əsaslanaraq, tədqiqat azad edilmiş bölgələrdə sektor inkişafının necə müəyyən edildiyini və bu əməliyyatların maliyyələşdirilməsi üçün hansı mexanizmlərdən istifadə edildiyini araşdıraraq tövsiyyələr və təkliflər verməkdir.

**İstifadə olunmuş tədqiqat metodları:** Müqayisəli təhlil, sintez, Tədqiqatvə s. kimi bir çox metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat zamanı Azərbaycanın işğaldan azad edilmiş rayonlarda iqtisadi vəziyyətin təhlili və sektorial inkişaf perspektivləri üçün normativ və hüquqi aktlardan, ixtisaslaşmış ədəbiyyatdan, jurnallarda nəşr edilən elmi yazılardan istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat zamanı nəzəri-metodoliji çatışmazlıqlar, xarici mənbələr üzrə hazırki vəziyyət üçün az sayda uğurlu nümunənin mövcud olması.

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri:** Azad edilmiş rayonlarda sektorial inkişaf mühüm rol oynayır, onun istiqamətlərinin müəyyən etmək və təkminləşdirilməsində maliyyə mexanizminin rolunu təyin etmək praktiki olaraq əhəmiyyətlidir.

**Nəticələrin istifadə oluna biləcəyi sahələr:** Tədqiqat nəticəsində azad edilmiş rayonlarda sektorial inkişaf istiqamətlərinin müəyyənləşdirmək və dövlət təlimatlarında istifadə edilə bilər.



***Açar sözlər:** maliyyələşmə mexanizmi, sektorial inkişaf, fiskal siyasət, investisiya, azad edilmiş rayonlar.*

## “DETERMINATION OF SECTORAL DEVELOPMENT DIRECTIONS AND FINANCING MECHANISM IN THE LIBERATED REGIONS”


## SUMMARY

**The actuality of the subject: The parties must be creative and inventive with their capabilities, experience, planning and financing mechanisms, methodologies, and empirical knowledge. In this regard, it is necessary to reach a broad consensus on the fundamental issues of the liberated regions. The topic's urgency is to discuss the application of a financing mechanism for sectoral development in liberated areas.**

**Purpose and tasks of the research: Based on their analysis, conducting scientific research and making recommendations and suggestions by examining how sector development is identified in the liberated areas and what mechanisms are used to finance these operations.**

**Used research methods: Comparative analysis, synthesis, research, etc. such as**

**The information base of the research: During the research, normative and legal acts, specialized literature, and scientific articles published in journals were used to analyze the economic situation and prospects of sectoral development in the liberated regions of Azerbaijan.**

**Restrictions of research: The study's theoretical and methodological shortcomings include the presence of a small number of successful examples for the current situation on external sources.**

**The novelty and practical results of investigation: Sectoral development plays an important role in the liberated regions, and it is practically important to determine the direction and role of the financial mechanism in its improvement.**

**Scientific-practical significance of results: It can identify sectoral development trends in the liberated areas and government guidelines.**



***Keywords: financing mechanism, sectoral development, fiscal policy, investment, liberated areas.***

## İXTİSARLAR

| | |
|---|---|
| **ABŞ**: | Amerika Birləşmiş Ştatları |
| **AR**: | Azərbaycan Respublikası |
| **ATƏT**: | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| **BP:** | British Petroleum |
| **COVID-19**: | Coronavirus disease (Koronavirus xəstəliyi) |
| **DVX**: | Dövlət Vergi Xidməti |
| **GPM**: | Geopromining |
| **İİTKM**: | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| **LTE**: | Long-Term Evolution (Uzun müddətli təkamül) |
| **MMC**: | Məhdud Məsuliyyətli Cəmiyyət (Uzun müddətli təkamül) |
| **MVt**: | Meqavat |
| **SES**: | Su Elektrik Stansiyası |
| **SOFAZ**: | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **ÜDM**: | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT

**GİRİŞ...........................................................................................................8**

**I FƏSİL. MALİYYƏLƏŞMƏ MEXANİZMİNİN FORMALAŞDIRILMASI VƏ İSTİFADƏSİNİN NƏZƏRİ - METODOLOJİ ASPEKTLƏRİ..................12**

1.1. Maliyyələşmə mexanizminin əsas mahiyyəti, vəzifələri və prioritet istiqamətləri...........................................................................................12

1.2. Maliyyələşmə mexanizminin əhəmiyyəti, formalaşması xüsusiyyətləri və tərkib hissələri... ..........................................................................................21

1.3. Maliyyələşmə mexanizminin dövlətin maliyyə siyasətinin tətbiq olunmasında rolu......... ..........................................................................................25

**II FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA İQTİSADİ VƏZİYYƏTİN TƏHLİLİ VƏ SEKTORİAL İNKİŞAF PERSPEKTİVLƏRİ..41**

2.1. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı..........................................41

2.2. Sektorial inkişaf istiqamətində nəzərdə tutulan iqtisadi vəziyyətin təhlili........50

2.3. Azad edilmiş bölgələrin sektorial inkişaf perspektivləri.................................. 58

**III FƏSİL. İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARDA SEKTORİAL İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ MALİYYƏLƏŞMƏ MEXANİZMİNİN FORMALAŞDIRILMASI...................................................66**

3.1. İşğaldan azad edilmiş rayonlarda iqtisadi inkişaf üçün tələb olunan maliyyə mənbələrinin müəyyənləşdirilməsi.....................................................................66

3.2. Maliyyə mənbələrinin sektorial inkişafının təmin edilməsi üçün maliyyə mexanizminin qurulması..........................................................................................73

3.3. Sektorial inkişafın davamlılığı üçün maliyyə nəzarəti mexanizminin formalaşdırılması....................................................................................................82

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.....................................................................................87**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.................................................90**

Cədvəllərin siyahısı.......................................................................................................96

Qrafiklərin siyahısı.......................................................................................................96

# GİRİŞ

**Mövzunun aktuallığı:** 27 sentyabr 2020-ci il tarixində Azərbaycan ordusunun Ermənistan ordusunun hücumuna qarşı başlatdığı hücum əməliyyatı nəticəsində Azərbaycan-Ermənistan müharibəsinin atəşkəs müddəti nəhayət ki, başa çatıbdır. 44 gün davam edən müharibədə Ermənistan böyük itkilər verdi və məğlubiyyətini qəbul edərək işğal etdiyi torpaqlardan çəkilməli oldu.

Azad edilmiş ərazilərdə tərəflərin təkbaşına inkişaf layihələri hazırlamaq, planlaşdırmaq və təşkil etməkdə dövrümüz üçün aktual məsələdir. Sektorial inkişaf istiqamətlərinin bir çox addımlar atılmışdır ki, bu layihələrdən bəziləri uğurla həyata keçirilib, bəziləri isə ilkin mərhələdədirlər. Bununla əlaqədar olaraq, azad edilmiş bölgələrdə inkişaf mütəxəssisləri arasında bu inkişaf layihələrinin davamlı olaraq necə müzakirə edilməli və planlaşdırılmalı olduğu, sərmayələrin qoyulması üçün qərarların necə qəbul edilməli və kimin qəbul edilməsi ilə bağlı intensiv müzakirələr aparılır.

Son dörddəbir əsrdə beynəlxalq iqtisadi inkişaflarda iz buraxan əsas hadisələr azad iqtisadiyyat təcrübələrinin uyğunlaşdırılması, ölkələr arasında əməkdaşlığın artması, inkişaf etməkdə olan ölkələrə kapital axını, texnoloji yeniliklər, enerji sektorunun əhəmiyyəti və bu sahədə sürətli inkişaflar olmuşdur. Eyni dövrdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə dünya iqtisadiyyatının uğurlarına təsir edən mühüm böhranlar yaranmışdır. Son illərdə maliyyə sektorunda rast gəlinən risklər sektorun yenidən qurulması və gücləndirilməsinin zəruriliyini açıq şəkildə nümayiş etdirir. Bu kontekstdə beynəlxalq əməkdaşlıq səyləri sürətlənmiş, bank sisteminin və digər riskli sahələrin tənzimlənməsi və nəzarəti ilə bağlı standartların müəyyən edilməsi, uyğunlaşdırılması və tətbiqinə xüsusi diqqət yetirilmişdir.

**Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi:** Bu hesabat Azərbaycanın azad edilmiş bölgələrində sektorial inkişaf istiqamətlərinin və maliyyələşmə mexanizminin müəyyən edilməsindən bəhs edir. Azərbaycanın azad edilmiş

bölgələrində sektorial inkişafda özünü təmin etmənin təşviqinə yönəlmiş çoxlu araşdırmalar olsa da, heç bir araşdırma bu məsələyə xüsusi diqqət yetirməmişdir.

Tədqiqat yaşayış vasitələri, əhali və iqtisadiyyatla bağlı mövcud məlumatların təhlilinə əsaslanacaq. Tədqiqat Azərbaycanın işğaldan azad edilmiş rayonlarında sektorial inkişaf istiqamətləri və maliyyələşmə mexanizmləri haqqında məlumat verəcəkdir. Bu məsələlərə aydınlıq gətirmək üçün kənd təsərrüfatı, heyvandarlıq, metallurgiya, tikinti və nəqliyyat kimi sahələr nümunə kimi seçilmişdir. Tədqiqat aşağıdakı suallara cavab verəcəkdir:

1. Azərbaycanın işğaldan azad edilmiş rayonlarında əkinçilik, heyvandarlıq, metallurgiya və tikintidə sahəvi inkişaf istiqamətləri hansılardır?

2. Bu sektorlar üçün hansı maliyyələşmə mexanizmlərindən istifadə olunur?

3. Onların effektivliyi və səmərəliliyi nədir? İstifadə olunan mexanizmlər nəyə nail ollmaq olar?

Bu araşdırma işğaldan azad edilmiş rayonların sektorların inkişafına və fəaliyyətinə töhfə vermək məqsədi daşıyır.

Bir çox yerli və xarici yazarların əsərlərinə istinad verilmişdir. Bu tədqiqatçılara Vəliyeva R.A., Abdullayeva E.T., Quliyeva A.E., Tağıyev T., Sarıyeva İ.,Salayev N.,Rzayev Q., Rəşid L.,Məhərrəmov M.O.,Xudiyev N., Zhan J., Li S., Kireeva E.E., Kornilova A.D., Chen X., Chirkunova E. K. və s. yazarların məqalə və əsərlərini demək olar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas vəzifələri işğaldan azad edilmiş rayonlarda sektorial inkişafı ilə bağlı elmi ədəbiyyatın sistemli təhlilini başa çatdırmaq və bu istiqamətlərin maliyyələşmə mexanizminə necə reaksiya verdiyini müəyyən etməkdir. Tədqiqatın əsas məqsədlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- İşğaldan azad edilmiş rayonlarda sektorial inkişaf istiqamətləri müəyyən etmək.

- Bu regionlarda maliyyələşmə mexanizmlərini müəyyən etmək.

- Zamanla baş verən dəyişiklikləri və dalğalanmaları, habelə onların ümumi iqtisadi şəraitdə nəticələrini qiymətləndirmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti işğaldan azad olunan ərazilərdəki bir çox sektorların inkişafı üzrə sahələr müəyyən edilmişdir, və predmet olaraq maliyyə mexaniminin, ən əsas da vergilərin bu sahələrə təsiri araşdırımışdır.

**Tədqiqat metodları:** Tədqiqat zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə sektorial inkişaf perspektivləri araşdırılmışdır və bu sahə üzrə bir neçə metodlardan və təhlillərdən istifadə edilmişdir. Təhlil metodu əsasında sektorial inkişaf istiqamətində nəzərdə tutulan iqtisadi vəziyyət təhlil edilmişdir. Tədqiqat işi zamanı təhlil, müqayisə və sintez metodlarından istifadə olunaraq bölgələrdə inkişaf perspektivləri müəyyənləşdirilmişdir

**Tədqiqatın informasiya bazası:** İşğala qədər Azərbaycanın Qarabağ bölgəsində bir çox beynəlxalq ekspertlər və tanınmış alimlərin iştirakı ilə çoxsaylı ekspedisiyalar keçirilib. Bu alimlərin tədqiqatlarının nəticələrinə əsasən, bu bölgələr biomüxtəlifliyin genetik ehtiyatlarında olan zənginliyinə əsasən ümumi Qafqaz regionunda xüsusilə seçilməsi məsələsi araşdırılmışdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin işğaldan azad edilmiş rayonların iqtisadi potensialı ilə bağlı şərhləri sektorial inkişaf üçün inkişaf perspektivlərini müəyyənləşdirmədə faydalı olmuşdur

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın aparılmasına əngəl olan nəzəri-metodoliji çatışmazlıqlar, o cümlədən yetərli yerli informasiya bazasının olmamağı, mövzunun hal-hazırkı vəziyyətdə də davam etməsi, dünyada olan pandemiyanın gələcək üçün proqnozlaşdırmalarda yaratdığı çətinliklər, xarici mənbələrin hazırki vəziyyət üçün real uğurlu nümunənin mövcud olmaması və s. göstərmək olar.

**Tədqiqatın elmi yeniliyi**: Tədqiqata əsasən əldə edilən mühüm müddəalara, nəticələrə və tövsiyələrə əsasən işğaldan azad edilmiş rayonlar subyektinin sektorial inkişaf istiqamətlərinin müəyyənləşdirmək və bu sahələr üçün potensial

maliyyələşmə mexanizmləri hazırlaya və tənzimlənməsi üzrə dövlət təlimatlar verə bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri :** Tədqiqatda olan nəzəri işlənmələrin və işğaldan azad edilmiş rayonlarda sektorial inkişaf üçün tövsiyələrin hər biri bu ərazilərdə maliyyələşmə mexanizmini təkmilləşdirmək üçün istifadə oluna bilər.

# I FƏSİL. MALİYYƏLƏŞMƏ MEXANİZMİNİN FORMALAŞDIRILMASI VƏ İSTİFADƏSİNİN NƏZƏRİ - METODOLOJİ ASPEKTLƏRİ

## 1.1. Maliyyələşmə mexanizminin əsas mahiyyəti, vəzifələri və prioritet istiqamətləri

Bazar iqtisadiyyatı maliyyə-kredit sisteminə, maliyyə mexanizminə əsaslanan iqtisadiyyatdır. Bütün dövlətlər öz iqtisadi və sosial vəziyyətini yaxşılaşdırmaq üçün maliyyə mexanizmindən hər bir aspektdən səmərəli formada istifadə etməlidir.

Maliyyə mexanizmi dedikdə bazar iqtisadiyyatının tələbləri ilə iqtisadiyyatın elmi əsasları əsasında vəsaitlərin səmərəli, düzgün və planauyğun istifadəsinin dərindən öyrənilməsi nəzərdə tutulur.

Bu o deməkdir ki, maliyyə mexanizmi, maliyyə planlaşdırılması üsulları, müxtəlif maliyyə münasibətlərinin maliyyə resursları və maliyyə institutlarının formalarının uyğun təşkili sistemi bir-biri ilə qarşılıqlı əlaqədədir. Maliyyə mexanizminin əsas məqsədi ölkə iqtisadiyyatında maliyyə resurslarının yaradılması, bölüşdürülməsi və istifadəsidir.

Maliyyələşdirmə sözünün mənası təşkilatın fəaliyyətini davam etdirmək üçün ehtiyac duyduğu hər cür iqtisadi resursların təmin edilməsidir. Bir sözlə, maliyyələşdirmə müəssisələr tərəfindən resursların yaradılmasıdır.

İqtisadi struktura nəzər saldıqda, bizneslərin bu gün çox müxtəlif maliyyələşdirmə üsullarından istifadə etdikləri görüləcək (Chirkunova, Kireeva, Kornilova, Pschenichnikova, 2016). Onlardan bəzilərini aşağıdakı kimi sadalamaq olar:

• Borc maliyyələşdirilməsi, daxili və xarici borclanma

• Öz kapitalından istifadə yolu ilə maliyyələşdirmə, kapitalın artırılması

• Maliyyə üsulları vasitəsilə maliyyələşdirmə, faktorinq, lizinq, forfeytinq kimi tətbiqlərdir.

Müasir maliyyə nəzəriyyəsinə əsasən, iqtisadiyyatda milli gəlirlərə, əmanətlərə, investisiyalara, məşğulluğa, işsizliyə, xarici ticarətə və gəlirlərin bölüşdürülməsinə müsbət real təsir göstərmək üçün dövlət gəlirlərindən, dövlət

xərclərindən, büdcələrdən və dövlət borc alətlərindən ibarət maliyyə mexanizmi və siyasəti toplusundan istifadə etmək olar. Bununla əlaqədar iqtisadi artımın əsas mənbələrindən olan və iqtisadiyyatda dövlət çəkisinin ölçülməsində mühüm yer tutan dövlət xərcləri ədəbiyyatda iqtisadi təsnifata uyğun formada cari xərclərə, dövlət investisiya xərclərinə və transfer xərclərinə görə fərqlənir.

Transfer xərcləri iqtisadiyyata dolayı təsiri və borclar üzrə faizlərin ödənilməsi ilə bağlı nəticələrin mürəkkəbliyi səbəbindən digər dövlət xərclərindən ayrılır (https://ww w.taxes.gov.az/az/page/transfer-qiymetlerinin-mueyyen-edilmesi-ve-tetbiqi-qaydalari, 2021). Bu xərclərə misal olaraq sosial məqsədlər üçün dövlət yardımı, iqtisadi məqsədlər çərçivəsində müəssisələr üçün stimullar, daxili və xarici borclanmalar üzrə faizlərin ödənilməsi və dövlət itkilərinin ödənilməsi kimi resursları göstərmək olar. Effektiv tələbatın birbaşa artması səbəbindən iqtisadi artımda əhəmiyyətli payı olan cari xərclər hökumət tərəfindən təklif olunan mallar və xidmətlər üçün xərclərdir. Bu xərclərin əhəmiyyətli hissəsini dövlət heyətinin əmək haqqı, dövlətin icarə və elektrik enerjisi xərcləri təşkil edir. İqtisadiyyata birbaşa təsir göstərən xərclərdən biri olan dövlət investisiyaları ölkədə kapital ehtiyatlarının artırılması, istehsal güclərinin artırılması və son nəticədə inkişaf maneələrinin aradan qaldırılması məqsədi ilə həyata keçirilir. Adətən, ölkələrin enerji, dağ-mədən, nəqliyyat və kommunikasiya müəssisələrində layihələrin həyata keçirilməsinə yönələn bu investisiyalar ciddi maliyyələşməni tələb edir.

Maliyyə siyasətinin daha bir aləti, borc siyasəti dövlət xərclərinin maliyyələşdirilməsi üçün əmanətlərin istifadəsini nəzərdə tutur. Borc siyasəti dövlət investisiyalarının həyata keçirilməsi imkanı, dövlət resurslarının çatışmazlığı səbəbindən imkanların olmaması və idxalda yüksək tələbata səbəb olan ödəniş balansının kəsirinin bağlanması kimi müxtəlif məqsədlər üçün istifadə edilə bilər.

Maliyyə mexanizmi alətlərinin optimal istifadəsi mikro və makro səviyyədə iqtisadi məqsədlərə ahəngdar şəkildə nail olmağa yönəlib. Makroiqtisadi sabitliyə və iqtisadi artıma gedən yolda fiskal siyasət avtomatik stabilizatorlar, pro-

konyunktur və anti-diskresion praktikaların köməyi ilə həyata keçirilir. Bu çərçivədə, makroiqtisadi məqsədlərə nail olmaq üçün fiskal siyasət və effektivlik praktikasında müvafiq nəzəri fərqlər, eləcə də iqtisadi düşüncə istiqamətləri nəzərdən keçirilir.

Maliyyə mexanizmlərinin müxtəlif aspektləri vardır. Beləliklə, müəssisələrdə fondlar yaradılır və mənfəətin bölüşdürülməsində istifadə olunur. Sığorta şirkətləri daha çox ehtiyat fondlarının yaradılmasına diqqət yetirirlər. Dövlət maliyyə mexanizmdən istifadə olunması ilə maliyyə siyasəti həyata keçirmiş olur.

Əsas vəzifə bazar iqtisadiyyatına keçid şəraitində maliyyə mexanizmini və onun həllini öyrənməkdir (Собина Н. В., & Логинов М.П., 2017). İqtisadiyyat elminin əsas vəzifəsi iqtisadi mexanizminin tərkib hissəsini təşkil edən maliyyə mexanizmini öyrənməkdir.

Maliyyələşmə mexanizmi aşağıdakı bir neçə vəzifələri yerinə yetirməkdədir:

**Qrafik 1: Maliyyələşmə mexanizminin əsas vəzifləri**




**Mənbə:** müəllif tərəfindən aparılan tədqiqat nəticəsində tərtib edilmişdir.

Birinci vəzifə fasiləsiz istehsal prosesini təmin etməkdir. Hər bir müəssisə və təşkilat məhsul istehsalı, satışı, dövriyyə kapitallarının cəlb edilməsi, iqtisadi həvəsləndirmə fondlarının yaradılması üçün maliyyə resurslarına sahib olmalıdır. Bu resursa ehtiyac maliyyə proqnozu ilə müəyyən edilir. Gəlir və xərclərin planlaşdırılması onları müqayisə etməyə və beləliklə, geri qaytarılmayan vəsaitlərin (özəl fondlar və ya bank kreditləri) mənbələrini müəyyən etməyə imkan verir.

Bazar iqtisadiyyatına münasibətdə birinci vəzifənin əhəmiyyəti artmışdır. Çünki bu vəzifənin yerinə yetirilməsində istifadə edilən göstəricilərin rolu - maya dəyəri, rentabellik, mənfəət, dəyər, kapital və s. rolu davamlı olaraq artmaqdadır.

Maliyyə nəzarətinin vəzifəsi vəsaitlərin düzgün tənzimlənməsini, monitorinqini və səmərəli istifadəsini təmin etməkdir. Maliyyə nəzarəti istehsalı, bölüşdürülməsi və onların tədavülünü əhatə etməkdədir. Maliyyə nəzarəti müəssisə daxilində istehsal, satış və mənfəət planlarının yerinə yetirilməsinə, material və maliyyə resurslarından istifadəyə, habelə pul rejiminə riayət olunmasına mütəmadi olaraq nəzarət edir.

Maliyyə nəzarətinin rolu, bir tərəfdən, müəssisə və sahələrdə daxili iqtisadiyyatı, digər tərəfdən də onun digər müəssisələr və təşkilatlarla, habelə maliyyə-kredit sistemi ilə əlaqələridir. Maliyyə nəzarəti müəssisələr və təşkilatların maliyyə, kredit və mühasibat intizamına riayət etmələrini təmin edir (Rzayev Q., 2014).

Maliyyənin üçüncü funksiyası olan bölgü funksiyası ümumi məhsulun və milli gəlirlərin bölüşdürülməsi prosesində yaranır. Bu bölgü istehsal və istehlak arasında əlaqə rolunu oynayır.

Beləliklə, milli gəlirin ilkin bölgüsünü və yenidən bölüşdürülməsini dövlət maliyyəsinin bölgü funksiyası vasitəsilə həyata keçirilir. Bununla belə, yenidən bölgü ölkənin milli gəlirinin sistemli şəkildə bölüşdürülməsi prosesinin davamıdır ki, bu da bir çox vaxt dövlət maliyyəsinin əsas funksiyası adlandırılır. Konkret olaraq ümumdövlət pul vəsait fondunun yaradılmasında və istifadəsində özünü göstərməkdədir.

Qeyd etmək lazımdır ki, maliyyələşmə mexanizminin üç funksiyası ayrı-ayrılıqda izah edilməsinə baxmayaraq, onlar həmişə bir-birilə qarşılıqlı əlaqədədir. Müəssisə və təşkilatların vəsaitlə təmin olunması onların normal fəaliyyət göstərməsinə şərait yaradır, bu da vəsait yığımının təşkilinə və manata nəzarətə şərait yaradır. Ən pis halda müəssisələr fəaliyyətlərinə davam edə bilmirlər. Bu halda nə pula qənaət, nə də manata nəzarət yoxdur. Yəni bu üç vəzifə bir-birindən

ayrılmazdır və bir-birini tamamlayır, istehsal prosesinin təşkilini və səmərəliliyini artırır.

Bazar iqtisadiyyatına keçid şəraitində maliyyə mexanizminin mövcudluğunda məhsuldar qüvvələrin inkişaf səviyyəsindən, o cümlədən ona uyğun istehsal münasibətlərindən asılıdır. Eyni zamanda da dəyər qanununun fəaliyyəti və digər iqtisadi qanunlar, eləcə də milli məhsulun, habelə onun tərkib hissələrinin istehsalı və mübadiləsi - əmtəə mübadiləsi və pul mübadiləsinin olduğu şəraitdə reallaşdırılmasından irəli gəlir. Maliyyə mexanizminin və siyasətinin düzgün qurulması ümumi daxili məhsulu, milli gəlirin bölgüsünü, istehsalın bərpasını, əmlakın, müəssisə və firmaların və onların rəhbərlərinin vəziyyətini, sosial-iqtisadi vəziyyəti və potensialı gücləndirir. Pul vəsaitlərinin düşünülmüş formada təşkili və istifadəsi üçün pul münasibətləri sistemindən istifadə olunur.

İstehsalın səmərəliliyinin və məhsulun keyfiyyətinin yüksəldilməsində maliyyə mexanizminin rolunun gücləndirilməsi həm cari, həm də gələcək planlarda öz əksini tapmışdır. Bu, nəzəri və praktik olaraq iki şəkildə özünü göstərir.

Nəzəri təhlil maliyyə mexanizmindən istifadəni bazar iqtisadiyyatının fəaliyyətinə əsaslanmasına imkan verir.

Praktiki maliyyə sistemi planını müzakirə etmək, iqtisadiyyatın bərpası və planlaşdırılmasının yeni şəraitində fəaliyyət göstərmək, maliyyə mexanizimində təcrübə qazanmaq və onların təkminləşdirilməsi yollarının hazırlanmasına davam etməkdir.

Tədqiqatzamanı problemin öyrənilməsi mürəkkəb istehsal prosesinin təkrarlanması və maliyyə münasibətlərinin təhliliylə ayrılmaz şəkildə bağlıdır. O, həmçinin maliyyə alətlərini, maliyyə münasibətlərini və bütün iqtisadiyyatın səviyyələrində olan maliyyənin rolunu aydınlaşdırmaqdadır.

Maliyyə mexanizmi iqtisadi resursların mürəkkəb birləşməsidir. Onun köməyiylə maliyyə resurslarından maksimum dərəcədə və məqsədəuyğun formada

istifadənin kəmiyyət və keyfiyyət göstəricilərinə təsirləri müəyyən edilir. Eyni zamanda da ümumi təkrar emal prosesində iqtisadiyyatı gücləndirmək mümkündür.

Bazar iqtisadiyyatına keçid şəraitində maliyyə mexanizmi digər iqtisadi kateqoriyalar ilə müqayisədə çoxlu nəzəri bilik və dərin təhlil tələb edir. Bundan əlavə maliyyə mexanizmi hər biri iqtisadi kateqoriya olan tək iqtisadi münasibətləri xarakterizə etmir, həm də pul fondları şəklində maddi məzmuna sahibdir. Maliyyə mexanizminin köməyi ilə maliyyə resurslarının hərəkətləri, səfərbər edilməsi və istifadəsi həyata keçirilir.

Maliyyə mexanizminin inkişaf üçün innovativ investisiya fəaliyyətinin inkişafı ərzaq təhlükəsizliyinin, milli və regional iqtisadiyyatın sosial-iqtisadi inkişafının, aqrar istehsalın və bütövlükdə Azərbaycanın rəqabət üstünlüklərinin artırılmasında strateji vəzifələrdən biridir. Təcrübə göstərir ki, aqrar-sənaye müəssisələrinin və ya borc vəsaitlərinin öz mənbələri hesabına innovativ-investisiya fəaliyyətinin artım templərinin artırılması baş vermir (Məhərrəmov M.O., 2020). Çünki, aqrar istehsalın kifayət qədər xərcli sahəsi olan innovativ-investisiya sahəsində fəallıq maliyyə mexanizminin inkişafı dövlət strukturlarının maliyyə dəstəyi şərti ilə tam şəkildə həyata keçirilə bilər.

Bununla yanaşı, regionların ərazi və sahə strukturlarının kənd təsərrüfatı müəssisələrinin innovasiya və investisiya fəaliyyətinin aşağı səviyyəsi təkcə dövlət maliyyə dəstəyinin kifayət qədər olmaması ilə deyil, həm də aqrar yönümlü ixtisaslı mütəxəssislərin və menecerlərin çatışmazlığı, innovasiya və kənd təsərrüfatı müəssisələrinin texniki texnoloji bazasının səviyyəsində geriləmə, müvafiq məlumatların sistemli şəkildə yenilənməməsidir.

Kənd təsərrüfatı müəssisələrində innovasiya və investisiya fəaliyyətini aqrar sənaye kompleksi müəssisələrində və ya müəssisənin idarəetmə sistemində elmi-texniki inkişafın vaxtında həyata keçirilməsi üçün optimal məbləğdə maliyyə resurslarının cəlb edilməsi üçün uyğunlaşdırılmış effektiv axtarışa yönəlmiş spesifik funksional-idarəetmə fəaliyyəti kimi nəzərdən keçirirlər.

Görünən odur ki, indiki şəraitdə innovasiya və investisiya fəaliyyətinin səmərəliliyinin artırılmasına kənd təsərrüfatı məhsullarının istehsalında yeni yanaşmaların olmaması və istehsal proseslərinə innovativ avadanlıq, texnika və texnologiyalar və ya müasirləşdirilmiş istehsal vasitələrinin daxil edilməsi strateji rəqabət üstünlüklərinə nail olmaq, inkişafın davamlılığı və Azərbaycanın müəssisələri tərəfindən kənd təsərrüfatı bazarlarında vəziyyətin möhkəmlənməsi üzrə planların yerinə yetirilməməsinə gətirib çıxara bilər.

Regional sahə strukturunun maliyyə mexanizminin inkişafında təsərrüfat subyektlərinin innovasiya-investisiya fəaliyyətinə maliyyə dəstəyi problemi çoxfunksiyalı və həm strateji, həm də operativ şəkildə, xüsusilə kənd təsərrüfatı məhsullarının daimi təkrar istehsalı və bugünkü bazar mühitində uğurlu maliyyə-təsərrüfat fəaliyyəti üçün öz maliyyə resurslarının aşkarlanması çərçivəsində mürəkkəb xarakterə sahibdir (Makhmudov S., 2020). Aqrar-sənaye kompleksində olan kənd təsərrüfatı müəssisələrinin innovasiya və investisiya fəaliyyətinə maliyyə dəstəyinin rolunun lazımi səviyyədə qiymətləndirilməməsi əhəmiyyətli innovativ layihələrin praktiki olaraq olmamasına və bununla əlaqədar avadanlıqların, texnikaların və texnologiyaların yenilənməsində, habelə yeni rəqabət qabiliyyətli məhsulların buraxılmasına gətirib çıxarır.

İnnovasiya və investisiya fəaliyyətinə dövlət maliyyə dəstəyinə mane olan problemlərin müəyyən edilməsi, təhlili və aradan qaldırılması regionların məkan və sahə strukturunun kənd təsərrüfatı müəssisələrinin inkişaf tempinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Regional müəssisələrinin innovativ investisiya fəaliyyətinin dövlət maliyyə dəstəyinin öyrənilməsinin nəzəri əsası aqrar sənaye kompleksinin regional məkan-sahə strukturunun ümumi maliyyə nəzəriyyəsi, ictimai (dövlət və bələdiyyə) və özəl təsərrüfat maliyyəsinin (kommersiya, qeyri-kommersiya təşkilatları, ev təsərrüfatları, sığorta, maliyyə bazarları və s.) qarşılıqlı fəaliyyətinin birgəmaliyyələşdirmə və qarşılıqlı təsir prinsipləri əsasında maliyyə dəstəyinin

mexanizmini və əsas istiqamətlərini əsaslandırmağa imkan verən maliyyə tənzimlənməsi nəzəriyyəsidir.

Maliyyələşdirmə və kreditləşdirmə yolu ilə aqrar-sənaye kompleksinin inkişafıda dövlətin birbaşa və dolayısı ilə iştirakı zəruri xarakter daşıyır. Regional aqrar-sənaye kompleksi müəssisələrinin proqram-məqsədli idarəetmə əsasında innovasiya-investisiya və maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsinin xarakterik xüsusiyyətləri vardır.

Aqrar sənaye və istehsalın xüsusiyyətlərini nəzərə almaqla yanaşı (torpağın keyfiyyətini, onun məhsuldarlığını, yerini, işlərin aparılma müddətini, mövsümlüyünü və s.), kənd təsərrüfatına dövlət maliyyə dəstəyi ilə bağlı qərarlar qəbul edərkən kənd təsərrüfatı torpaqlarının vəziyyəti kimi göstəricilərin qiymətləndirilməsi də daxil olmaqla, regional aqrar-sənaye kompleksinin investisiya cəlbediciliyinin səviyyəsinə görə diferensiallaşmasına baxmaq lazımdır; əsas vəsaitlərin köhnəlməsi; kreditor borcları; zərərli sahibkarlıq subyektlərinin payı; texnoloji innovasiyaya çəkilən xərclərin səviyyəsi; göndərilən yeni məhsulun həcmi; kənd əhalisinin payı, orta aylıq gəlir; elmi-tədqiqat işlərində çalışan insanların sayı və s. Yəni, kənd təsərrüfatı müəssisələrinin innovasiya və investisiya fəaliyyətinə dövlət maliyyə dəstəyinin formalaşdırılması regional aqrar-sənaye kompleksinin investisiya komponenti nəzərə alınmaqla həyata keçirilməlidir.

Regional məkan və sahə strukturlarının inkişafının innovativ və investisiya fəaliyyətinə dövlət maliyyə dəstəyindən danışarkən aşağıdakıları qeyd etmək olar:

**Cədvəl 1: İnnovativ və investisiya fəaliyyətlərinə dövlət maliyyə dəstəkləri**

| № | Maliyyə dəstəkləri |
|---|---|
| **1** | Yeni qurulan komplekslərin inkişafına dövlət maliyyə dəstəyinin bütün səviyyələrdə təmin edilməsi; |
| **2** | Vergitutma, kreditləşdirmə, dövlət, rayon və bələdiyyə sifarişlərinin yerləşdirilməsi, inzibati maneələrin azaldılması, maliyyə resurslarının idarə edilməsinin rəqəmsallaşdırılması və s. istiqamətlərdə ümumsistem dəstək tədbirləri həyata keçirilməsi; |
| **3** | Regional və maliyyə mexanizmlərinin inkişafı üçün büdcədən vəsaitlərin regionlar arasında bölüşdürülməsi müsabiqə əsasında və birgə maliyyələşdirmə şərtləri əsasında həyata keçirilməsi. |

**Mənbə:** müəllif tərəfindən aparılan tədqiqat nəticəsində tərtib edilmişdir.

Azərbaycan müəssisələri öz innovasiya və investisiya fəaliyyətlərində bu gün məqsədyönlü şəkildə aşağıdakı vəzifələri həll edirlər: yeni yüksək rəqabət qabiliyyətli məhsul növlərinə keçid; istehsal proseslərinin texniki və texnoloji platformasının yenidən təchiz edilməsi; rəqəmsal idarəetmənin tətbiqi; işçilərinin sosial təminat səviyyəsinin yüksəldilməsi.

Buna baxmayaraq, ümumilikdə, yerli müəssisələrin innovativ fəaliyyətə investisiyalar aşağı səviyyədə qalır. Bu gün Azərbaycanda maliyyə mexanizmi və regional inkişaf üçün dövlət maliyyə dəstəyi mexanizminin təşkili və effektiv işləməsi ilə bağlı praktiki olaraq struktur yoxdur.

Regional məkan və sahə strukturunun innovativ inkişafına dövlət maliyyə dəstəyi mexanizmi aşağıdakı xüsusiyyətlərə malikdir:

a) innovativ inkişafı üzrə proqram və strateji sənədlərin işlənib hazırlanmasında və qəbulunda bütün maraqlı idarəetmə strukturlarının (federal, regional, bələdiyyə, sahə, yerli səviyyələr) geniş iştirakını nəzərdə tutur;

b) regional inkişaf institutlarının və dövlət-özəl tərəfdaşlığın maliyyə institutlarının fəal köməyi ilə müəssisələrdə innovativ layihələrin maliyyə dəstəyinə imkan verən, büdcədən və qeyri-dövlətdən maliyyə vəsaitlərini toplayan sahələrarası maliyyə münasibətlərinin xüsusiyyətlərini nəzərə alır, habelə regionların sosial-iqtisadi və innovativ inkişafına investisiya qoyuluşu üçün büdcə mənbələri ayrılır;

d) istehsalat və xidmət sferasında innovativ layihələr üçün ən yaxşıların investisiya prioritetinin qiymətləndirilməsi üsullarından, proqram-məqsəd idarəetmə sisteminin, layihənin prinsip və metodları əsasında innovasiya və investisiya fəaliyyətinin çevik idarə edilməsinin tənzimlənməsinin istifadəsinə imkan verir.

e) xidmət və istehsal müəssisələri tərəfindən investisiyaların gedişatına və innovativ layihələrin həyata keçirilməsinə nəzarətdə rəqəmsal texnologiyalardan istifadəni nəzərdə tutur.

## 1.2. Maliyyələşmə mexanizminin əhəmiyyəti, formalaşması xüsusiyyətləri və tərkib hissələri

Yunan dilindən tərcümədə alət, cihaz mənasını verən "mexanizm" termininin etimologiyasını nəzərə alaraq maliyyə-iqtisadi ədəbiyyatda maliyyələşmə mexanizmi belə başa düşülür:

- həm milli iqtisadiyyat səviyyəsində, həm də onun ayrı-ayrı subyektləri (dövlət, sənaye, müəssisə) səviyyəsində maliyyənin (və ya maliyyə münasibətlərinin) təşkili vasitəsi;
- maliyyə resurslarının idarə edilməsi aləti;
- müəssisənin təsərrüfat fəaliyyətinin, cəmiyyətin iqtisadi və sosial inkişafının təmin edilməsi və tənzimlənməsi vasitəsi;
- maliyyə idarəetmə sistemi (maliyyə münasibətləri);
- maliyyə resurslarının idarə edilməsi sistemi;
- təsərrüfat fəaliyyətinin maliyyə idarə edilməsi sistemi

Beləliklə, qeyd etmək olar ki, "maliyyələşmə mexanizmi" anlayışının ayrı-ayrı müəlliflər tərəfindən konseptuallaşdırılması təkcə onun fəaliyyət göstərmə xüsusiyyətinə (daxili və ya xarici) deyil, həm də bütövlükdə nəzarət sistemi kimi və ya onun anlayışı kimi başa düşülməsinə əsaslanır.

Maliyyələşmə mexanizmi iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən maliyyə münasibətlərinin növünü, metodunu, formasını və üsullarını müəyyənləşdirir. Bundan əlavə, maliyyələşmə mexanizminin strukturu mürəkkəbdir və müxtəlif maliyyə münasibətlərini özündə cəmləmişdir. Dövlət iqtisadi qanunlarda olan tələbləri nəzərə almaqla öz məhsulunu, milli gəlirini, pul gəlirlərini və fondlarını bölüşdürmək üçün maliyyələşmə mexanizmindən istifadə edərək öz maliyyə resurslarını yaradır.

Maliyyələşmə mexanizmi, təsərrüfat və müəssisə təşkilatları, sığorta, dövlət maliyyələşmə mexanizmi və s. formada bölünür. Bu mexanizmlərin hər biri digər struktur mexanizmlərin hər biri ilə fərqli struktur əlaqəsinə malikdir. Məsələn,

dövlətin maliyyələşmə mexanizmi büdcə və büdcədənkənar fondlar kimi dövlət mexanizmlərinə bölünür (Abdullayeva E.T., Vəliyeva R.A., 2021). Eyni zamanda da maliyyələşmə mexanizmi regionlar üzrə bölünür. Hər bir maliyyələşmə mexanizminin işləməsi maliyyə resurslarının yaradılmasına və maliyyə resurslarından səmərəli istifadə olunmasına kömək edir.

Bütün maliyyələşmə mexanizmləri sərbəstdir, onların hər biri müəyyən funksiya və vəzifəni icra edir, habelə bir-biri ilə sıx əlaqədədir. Maliyyələşmə mexanizmləri həmçinin bənzərdirlər. Bu maliyyələşmə mexanizmlərinin əsas bənzərliyi dövlət, ayrı-ayrı müəssisələr, təşkilatların sərəncamlarında vəsaitlərin yığılması və s. daxildir.

Bazar iqtisadiyyatına keçid dövründə iqtisadi və sosial sahələrin maliyyələşmə mexanizmi regionları pulla təmin etməyə və əhalinin həyat səviyyəsini yaxşılaşdırmağa kömək edir. İstehsalın artırılması, kapitalın maya dəyərinin aşağı salınması, vergilərin artırılması, maddi və əmək ehtiyatlarından istifadə edilməsi üçün vəsaitlərdən səmərəli istifadə edilməsi, resurslardan daha səmərəli istifadə etmək üçün iqtisadi stimulların gücləndirilməsi lazımdır.

Maliyyələşmə mexanizmləri böyük maliyyə resurslarının səfərbər edilməsini təmin edir. Onlar milli iqtisadiyyatın inkişafına, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə və əhalinin sosial vəziyyətinin daha çox yaxşılaşdırılmasına yönəlib.

Maliyyələşmə mexanizmləri dövlətlər tərəfindən daimi nəzarətdə saxlanılır və bu nəzarət sisteminə maliyyə nəzarəti deyilir. Əlavə olaraq, bütün bu prosesləri maliyyə siyasəti təyin edir. Maliyyə siyasətini mühasibatlıq sahəsində uçot qaydalarına bənzətmək olar. Bu siyasətin vasitəsilə dövlət pul vəsaitlərini, kredit və investisiya fondlarını idarə edir.

Maliyyə siyasətin effektivliyinin hadisələrdən və cari vəziyyətdən asılılığı dövri hərəkətlərin mövcudluğunda baş verən proseslərə uyğun olaraq formalaşan siyasətin həyata keçirilməsinin effektivliyi ilə bağlı məsələləri əhatə edir. Müasir

fiskal siyasətin tsiklik dalğalanmalarını nəzarət altında saxlamaq məqsədi dövri hərəkətlərin izlənilməsini tələb edir. Bu kontekstdə fiskal siyasətlərin hadisələrə cavab vermək və iqtisadi fəaliyyətləri tənzimləmək gücünü qiymətləndirmək üçün iqtisadiyyatda konyuktura mərhələlərinin xüsusiyyətlərinin müəyyən edilməsi vacibdir. Başqa sözlə, həyata keçirilən və ya həyata keçiriləcək effektiv siyasət alətlərinin ölçüsü və onların yaradacağı təsirlər konyuktura hərəkətlərinin araşdırılmasını tələb edir.

İqtisadiyyatda zamanla baş verən iqtisadi tərəddüdlər mövsümi, təsadüfi və tsiklik dalğalanmalar olaraq üçə bölünür. Pozulma anlayışı tsiklik dalğalanmaların fərqləndirici məqamını təşkil edərkən; İstehsal, artım, məşğulluq və qiymət səviyyəsi kimi makro dəyişənlərdə uzun və ya qısamüddətli qeyri-sabitlik dövri hərəkətlər yaradır. Texniki bölmələr də var ki, burada makroiqtisadi göstəricilərin bir dövrdən digərinə keçidi konyunktura hərəkətlərindən asılı olaraq adlanır. Məsələn, hər hansı göstəricinin dəyişməsi konyunkturanın növbəti keçid nöqtəsindən əvvəl baş verirsə, ona aparıcı dəyişən deyilir. Konyunktura ilə eyni vaxtda baş verənlərə kəsişən dəyişənlər, konyunktura növbəti dövrəyə keçdikdən sonra baş verənlərə isə gecikmiş dəyişənlər deyilir.

Yuxarıda deyilənlərdən göründüyü kimi, iqtisadiyyatın inkişafında maliyyələşmə mexanizmi əsas rol oynayır. Maliyyələşmə mexanizmlərinə gəldikdə, maliyyə qanunvericiliyi, maliyyə planlaşdırması, maliyyə idarəçiliyi müxtəlif maliyyə münasibətləri, maliyyələşmə mexanizminin strukturu, quruluş fərqliliyi və hər birinin fərqli funksiyaları vardır. Eyni zamanda fərdi maliyyə münasibətləri dövlətin maliyyə ehtiyatlarının yaradılmasında yaxından da iştirak edir. Bütün mülkiyyətdən maddi istehsalın bütün sahələri dövlətin maliyyə ehtiyatlarının yaradılması ilə daha sıx bağlıdır. Maliyyə resurslarının yaradılmasında mühüm rol oynayan maliyyə sistemində dövlət mühüm rol oynayır.

Yuxarıda qeyd edildiyi kimi, maliyyələşmə mexanizminin strukturu və quruluşu əhalinin sosial-iqtisadi vəziyyətinə uyğun olaraq dəyişir və təkmilləşdirilməsində xüsusi bir rol oynayır.

Maliyyələşmə mexanizminin mahiyyətinə dair mövcud nəzəri və metodoloji yanaşmaların öyrənilməsinin nəticələrinə əsasən, onun təşkili və fəaliyyətinin əsas konseptual aspektləri haqqında bunları qeyd etmək olar:

- maliyyələşmə mexanizmi eyni zamanda müəssisənin maliyyə fəaliyyətində maliyyə münasibətlərinin praktiki həyata keçirilməsi vasitəsi kimi tanınmaq olar; maliyyə resurslarının formalaşması, bölüşdürülməsi və istifadəsi üzrə idarəetmə qərarlarının həyata keçirilməsi vasitəsi; təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətinə maliyyənin təsirinin həyata keçirilməsi vasitəsi.

- maliyyə (iqtisadi münasibətlər kimi) öz funksiyalarını (bölüşdürmə, tənzimləmə və nəzarət) eyni vaxtda yerinə yetirdiyi üçün maliyyələşmə mexanizminin təsiri həm kəmiyyət, həm də keyfiyyət müəyyənliyinə malikdir. Müvafiq olaraq, təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətinə təsir göstərmək üçün maliyyələşmə mexanizmindən istifadə ayrılmaz şəkildə əlaqəli olan maliyyə təminatı və maliyyə tənzimlənməsi üsullarını nəzərdə tutur və onlardan birinin həyata keçirilməsi digərinin eyni vaxtda həyata keçirilməsini nəzərdə tutur.

- metodologiyada maliyyələşmə mexanizminin elementləri daxili göstəricilərə malik maliyyə alətləri (maliyyə resurslarına təsir edən) olan bir sistem kimi öyrənilməsi məqsədəuyğundur.

- müəssisənin maliyyə idarəetmə sistemində maliyyələşmə mexanizmi ayrıca bir alt sistemdir. Onun funksiyası idarəetmə təsirini bilavasitə həyata keçirməkdən ibarətdir.

- maliyyələşmə mexanizmi və maliyyə idarəetməsi anlayışları eyni deyil. Çünki biz onları maliyyə resurslarının idarə edilməsi sistemində ayrıca alt sistemlər kimi başa düşürük. Maliyyə menecmenti idarəetmə təsirinə dair qərarların qəbul

edildiyi və həyata keçirildiyi idarəetmə sistemidir. Eyni zamanda, maliyyələşmə mexanizmi yalnız bu təsirin həyata keçirilməsi vasitəsidir.

- təsərrüfat subyektlərinin maliyyə resurslarının idarə edilməsi sistemində maliyyələşmə mexanizminin işləməsi bu sistemin digər altsistemlərinin, habelə dövlətin və bazarın fəaliyyəti ilə əlaqədar xarici amillərin təsiri altında baş verməkdədir.

- maliyyələşmə mexanizmi iqtisadi mexanizmin tərkib hissəsi, dövlətin bütün maliyyə sistemi üçün vahid alətlər toplusu kimi başa düşülür.

## 1.3. Maliyyələşmə mexanizminin dövlətin maliyyə siyasətinin tətbiq olunmasında rolu

İstənilən dövlətin maliyyə siyasətini həmin ölkənin iqtisadi siyasətinin əsasını təşkil edir. Fiskal siyasət ilk növbədə iqtisadi siyasət, sosial siyasət və s. iqtisadi-sosial xidmətlər ilə təmin edib siyasətinin həyata keçirilməsində əsas rol oynayır. İqtisadi siyasət, iqtisadi strategiya və iqtisadi taktika kimi anlayışlara bazar iqtisadiyyatı şəraitində iqtisadi ədəbiyyatda tez-tez rast gəlinir. İqtisadi siyasət iqtisadi sferada elmi ideyaların, məqsədlərin, vəzifələrin, habelə siyasi alətlərin və iqtisadi sahədə praktiki təcrübənin məcmusuna aiddir. İqtisadi strategiya uzunmüddətli məqsəd və vəzifələrin fundamental əsasını təşkil edir. Taktika yaxın gələcək üçün məqsədlərdən, vəzifələrdən və onların həyata keçirilməsi mexanizmlərindən ibarət olur.

Məlumdur ki, bir çox dövlətlər iqtisadi funksiyalarla yanaşı bir çox başqa funksiyaları da yerinə yetirirlər. Bu funksiyaların səmərəli, aydın, dəqiq və elmi cəhətdən əsaslandırılan iqtisadi siyasət, strategiyalar və taktikalar işlənib hazırlanması lazımdır. İlk növbədə, konkret zaman və məkanın özəlliklərini nəzərə almaq, iqtisadiyyatla siyasətin bir-birinə qarışmasını təmin etmək, hər bir addımların daxili xarakteristikasının olmasını təmin etmək vacibdir.

Əmtəə-pul münasibətlərinin fəaliyyəti bir çox ölkənin iqtisadiyyatı maliyyələşmə mexanizmi mövcud olmadan var ola bilməz. Bu o deməkdir ki,

iqtisadi siyasətin də fiskal aspekti olmalıdır. Fiskal siyasət iqtisadi siyasətin tərkib hissəsi sayılır.

Fiskal siyasət maliyyə münasibətlərdən iqtisadi strukturun tərkib hissəsi olması ilə fərqlənir. İqtisadi siyasətin həyata keçirilməsi ilə cəmiyyətin ümumi inkişafı fiskal siyasətin formalaşmasından və təşkilindən asılı olur. Həmin amil bazar iqtisadiyyatı şəraitində xüsusi ilə vacibdir. Çünki bazar iqtisadiyyatı ilk növbədə maliyyə kreditləşməsi mexanizminə əsaslanır. İqtisadiyyatın dövlət tənzimlənməsi əsasən maliyyə tənzimləyiciləri vasitəsi ilə həyata keçirilməkdədir.

Bir çox iqtisadi ədəbiyyatlarda fiskal siyasətin mahiyyəti müxtəlif aspektlərdən araşdırılır. Maliyyə siyasətə çox vaxt maliyyə sistemi vasitəsilə reallaşdırılan tədbirlər məcmusu kimi baxılır. Lakin qeyd olar ki, bu tədbirlər fiskal siyasət ola bilməz, onlar yalnız fiskal siyasətin həyata keçirilməsi tədbirləridir. Fiskal siyasət bu tədbirlərin həyata keçirilməsinə qədər formalaşır və bu fiskal tədbirlər vasitəsilə həyata keçirilir. Odur ki, maliyyə siyasətini iqtisadi strategiyanın həyata keçirilməsi üçün maliyyə sistemi vasitəsilə həyata keçirilən tədbirlərin elmi əsaslarının xülasəsi kimi qəbul etmək olar.

Maliyyə siyasəti, fiskal strategiya və maliyyə taktika əsasında müəyyən edilir. Fiskal strategiyası maliyyədən istifadənin əsas aspektlərini, maliyyə münasibətlərinin təşkili formalarında və üsullarında dəyişiklikləri əhatə edir. Maliyyə taktikası maliyyə münasibətlərinin və fəaliyyətinin forma və üsullarını dəyişdirərək mövcud vəzifələri yerinə yetirmək məqsədi daşıyır.

Fiskal siyasət, ilk növbədə, müəyyən iqtisadi məqsədlərə nail olmaq üçün maliyyədən istifadə etməkdir. Dövlət makroiqtisadi məqsədlərə nail olmaq üçün maliyyə resurslarından istifadə olunur. Dövlət gəlirlərinin artırılması və büdcənin tarazlaşdırılması iqtisadi artımın əsas alətləridir və bu resursların təmin edilməsi fiskal siyasətin əsas məqsədlərindən biridir.

Maliyyə siyasəti insan fəaliyyətində unikal sahə kimi üstqurum kateqoriyasına aid edilir. Bu siyasətlə cəmiyyətin iqtisadi əsasları arasında möhkəm

əlaqə var. Bir tərəfdən fiskal siyasət iqtisadi münasibətlərlə yaranır və formalaşır. Lakin cəmiyyət son nəticədə iqtisadi vəziyyətdən asılı olan bu siyasəti seçməkdə və həyata keçirməkdə azad deyil. Digər tərəfdən, fiskal siyasətin iqtisadi əsaslarına, yəni inkişafın qanunauyğunluğuna və məntiqinə görə formalaşan və inkişaf edən bəzi xüsusiyyətlər var. Ona görə də fiskal siyasət ölkənin maliyyə və iqtisadiyyatına mənfi təsir göstərə bilər. Bu təsirlər fərqli ola bilər. Başqa sözlə, fiskal siyasətin aparılması iqtisadi inkişafın tənəzzülünə səbəb ola bilər.

Dövlətin böyüməsi və inkişafı, bir tərəfdən, maliyyə resurslarının böyük konsentrasiyasına imkan verir ki, ona iqtisadi vəziyyətə lazımi təsir göstərməyə şərait yaratmış olur.

Dövlətin böyüməsi və inkişafı, bir tərəfdən, maliyyə resurslarının böyük konsentrasiyasına imkan verir ki, o da iqtisadi vəziyyətə lazımi təsir üçün şərait yaradır.

Fiskal siyasətin iqtisadi inkişafa aktiv təsir göstərə bilməsi elmi cəhətdən təsdiq edilmişdir. Lakin elmi yanaşmalar, yəni biliklərin və bütün bu amillərin tədqiqi iqtisadi münasibətlərin xarakterindən asılı olmayaraqdan fiskal siyasətin uğurunu təmin edə bilər. Bu səbəbdən də fiskal siyasət qərarları iqtisadi məntiq qanunlarına uyğun qəbul olunmalıdır. İqtisadi və sosial proseslərin gedişi haqqında etibarlı və dəqiq məlumata malik olmaq, real və ya digər fiskal siyasət tədbirlərinə malik olmaq xüsusilə vacibdir. İnformasiya mühüm və hərtərəfli maliyyə siyasətinin formalaşdırılmasında əsas rol oynamalıdır.

Fiskal siyasətin məqsədi maliyyə resurslarının həcmini və səmərəliliyini artırmaq olmalıdır. Maliyyə siyasətini hazırlayarkən konkret tarixi konteksti nəzərə almaq da vacibdir. Konkret olaraq, tarixi kontekst cəmiyyətin inkişaf mərhələsinin müəyyən xüsusiyyətlərini, yerli və beynəlxalq vəziyyətin xüsusiyyətlərini, dövlətin real iqtisadi və maliyyə imkanlarını əks etdirir.

Ərazi bütövlüyünün bərpası Azərbaycana bu regionun iqtisadi potensialından tam istifadə etməyə imkan verəcək ki, bu da onun vətəndaşlarının rifahına müsbət təsir göstərəcək, həmçinin Ermənistanın davam edən münaqişə illərində məqsədli şəkildə təcrid olunduğu Cənubi Qafqazda regional əməkdaşlıq üçün əlavə stimul olacaqdır.

## 2.2. Sektorial inkişaf istiqamətində nəzərdə tutulan iqtisadi vəziyyətin təhlili

Qarabağ Azərbaycanın ən qədim tarixi bölgələrindən biridir və onun tərkib hissəsidir. Hər bir xalq öz tarixində ağrılı və xoşbəxt illəri qeyd edir. Ötən illərdə ölkə iqtisadiyyatının gücləndirilməsi, valyuta ehtiyatlarının yaradılması, ordunun müasir texnika ilə təchiz edilməsi, diplomatiya sahəsində əldə olunan uğurlar Azərbaycan Ordusunun qələbə yürüşünə başlaması üçün lazımi şərait yaratmışdır. Dünyanın ən qüdrətli 50 ordusu sırasında yer alan Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətlə dünya hərb tarixinə yeni səhifə yazdı. 2020-ci ilin payızında hərbi münaqişədə qazanılan qələbə nəticəsində Azərbaycan Qarabağda infrastrukturun yenidən qurulmasına və bu bölgələrin inkişafına başlayıb. Artıq azad edilmiş ərazilərin mina və digər partlayıcı qurğulardan təmizlənməsi prosesinə başlanılıb. Şuşa növbəti dəfə mədəniyyətimizin paytaxtı elan edildi. Prezident İlham Əliyev münaqişədən sonrakı yenidənqurma üçün əsasları müəyyən etdi. Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının inkişafı, beynəlxalq inkişaf tərəfdaşları və investorların iştirakı ilə yenidənqurma, tikinti və humanitar tədbirlər, dövlət və özəl sektor arasında əməkdaşlıq, məcburi köçkünlərin qayıdışı və sosial kapitalın inkişafı, xüsusi dövlət proqramları ilə sektorial inkişaf tətbirləri nəzərdə tutulmuşdur. İşğaldan azad edilmiş torpaqlarda sektorial inkişafın istiqaməti üçün mədənçıxarma sənayesi, metallurgiya, emal sənayesi, yeyinti sənayesi, turizm və istirahət, yaradıcı sənaye, tibb, taxılçılıq, tərəvəzçilik, pambıqçılıq, üzümçülük, meyvəçilik və heyvandarlığın inkişaf potensialın iqtisadi vəziyyəti təhlil olunmuşdur. Bundan əlavə, bu sahələrə sərmayə qoyuluşu həm qeyri-neft ixracının artması, həm də idxalın əvəzlənməsi və dəyər zəncirlərində iştirak üçün işi vacib edir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin sektorial inkişaf istiqamətində inkişaf etdirilməsi müxtəlif sektorları əhatə edəcəkdir. Bunların siyahısı geniş olduğu üçün bir sıra qrup ardıcıl olaraq sektorlar üzrə ayırd edilməlidir. İlk əvvəl idarəetmə və təhlükəsizlik məsələləri istiqamətində məsələlər durur. Söhbət işğaldan azad edilmiş ərazilərinin minalardan və digər bir çox hərbi

resurslardan təmizlənməsindən, bundan başqa həyata birbaşa təhlükə yaradacaq ekoloji və bioloji pozuntularının hər birinin aradan qaldırılmasından gedir. Bundan başqa, sərhəd xidməti, polis nəzarəti və dövlət orqanlarının fəaliyyəti üzrə məsələlərin hər biri diqqətə alınmalıdır.

İşğal altında olan bu torpaqlar ümumi 6 şəhər, 7 rayon mərkəzi, 12 qəsəbə, təxminən 830 kənddən ibarətdir ki, bu ərazilərdə yerləşən 700 tibb müəssisəsi və xəstəxana, 6 dövlət teatrı, 85 musiqi məktəbi, təxminən 600 sənaye, kənd təsərrüfatı və digər müəssisələr dağıdılmışdır (https://bizim.media/az/iqtisadiyyat/2963/, 2020). Ümumi 1 mln. hektardan çox olan kənd təsərrüfatı sahəsi, ümumi 128 min suvarılan torpaq, o cümlədən 35 min hektara yaxın meyvə və üzüm bağları məhv olunaraq dövriyyədən çıxarılmışdır (https://bizim.media/az/iqtisadiyyat/2963/, 2020).

İşğala qədər ÜDM istehsalına baxdıqda ölkə üzrə ümumi 24%-i, üzüm istehsalında 41%, kartof istehsalında 46%, ət istehsalında 18%, süd istehsalında 34% həmin bu rayonların payına düşmüşdür. Bu statistik məlumatlara əsasən görüləcək işlərin miqyasını təsəvvür etmək mümkündür.

Qarabağ ərazisində 4 giqavat günəş enerjisi, 0,5 giqavat külək və 0,7 giqavat su potensialı bölgənin yaşıl enerji zonasına çevrilməsində böyük potensiala sahibdir. Suqovuşan", "Xudafərin", "Qız Qalası" stansiyaları, o cümlədən Laçın və Kəlbəcərdəki kiçik su elektrik stansiyaları azad edilən bölgələrin ilkin enerji tələbatını ödəyə biləcək gücündədir. Qarabağda BP-nin "yaşıl enerji" üzrə sərmayə yatırarsa nəinki alternativ enerji sahələri üzrə, bütövlükdə Qarabağ ərazisində sərmayə cəlbinə səbəb olacaq (https://xalqqazeti.com/az/news/82383, 2021).

Azərbaycanın işğaldan azad edilmiş bölgələrində iqtisadi artıma dəstək olan sahələri diqqətli seçməliyik. Nümunə olaraq, Azərbaycanda tikinti sektorunda məhsulundan ümumi 84 sahə (downstream) faydalanmaqdadır, tikinti özü isə cəmi 44 sahənin (upstream) xidmətindən və məhsulundan yararlanır. Beləliklə də, tikinti sektoru elə bir həlqəyə çevrilmişdir ki, onun vasitəsilə bu ərazidə bütün zənciri tərpətmək, bundan başqa, tələb-təklif yaratmaq mümkündür. Azərbaycanın Qarabağ

ərazisində tikinti bumu bütün iqtisadiyyatımızı canlandıra bilər. Belə ki, tikinti sektorunda istifadə edilən məhsullar və xidmətləri mümkün qədər hər birinin yerli istehsalının təmin olunması ilə əlavə dəyər yaradıla bilər. Tikinti sektoru qədər emal sənayesindəki "upstream" və "downstream" istiqamətləri üzrə təsir imkanlarına sahibdir. Çünki istər dağ-mədən, istərsə də kənd təsərrüfatı sektoru üzrə məhsul olsun, emal sənayesi üzrə xammal resursuna dəyər əlavə olunmaqla, emal dərinliyini daha da artırmaqla iqtisadiyyatı canlandıracaq, iş yeri və əlavə dəyər yaradılacaqdır.

Azərbaycan ərazisinin 2030-cu il hədəflərinə baxdıqda əhali artımı da nəzərə alınmalıdır. Belə ki, 2030-cu ilə qədər əhali sayında BMT-nin proqnozlarına əsasən ümumi 600 min nəfər artacaqdır. Bir tərəfdən də Qarabağda olan 167 faydalı təbii resurslar, su, meşə və torpaq fondu, tarixi və mədəni abidələr, digər tərəfdən də 600 min insan yaxın əhali perspektivdə iqtisadiyyatımıza daha da əlavə güc qatacaqdır. Bu müddət ərzində də istər insan kapitalını, istərsə də təbii ehtiyatlar daha da səmərəli formada istifadə edilməsi üçün şərait yaradılmış olacaq.

Qarabağ bölgəsində təhlükəsizliyin təmin edilməsində, o cümlədən burada minalardan təmizlənmə və ərazidə infrastrukturun yaradılması istiqamətlərində vacib yük dövlət büdcəsi üzərinə düşməkdədir, beynəlxalq inkişaf partnyorları, habelə özəl sektorlar və diaspora sərmayələrinin hər biri iqtisadiyyatın canlandırılmasında mühüm rola sahib ola bilər. Bundan başqa, 2030-cu ilədək Qarabağ ölkəmizin qeyri-neft sektoru üzrə 5-10 %-i həddində iqtisadiyyata sahib ola bilər.

Hazırki iqtisadi vəziyyətin təhlili onu göstərir ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə quruculuq zamanı bir çox maliyyə mənbələrindən, dövlət büdcəsindən, SOFAZ-dan, xarici kredit təşkilatlarının ayırdığı maliyyələşmələrdən, qrantlardan, ianələrdən, özəl sərmayələrdən, qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən istifadə oluna bilər. İndidən hər kəs tərəfdən hiss olunur ki, burada beynəlxalq təşkilatların, xarici dövlətlərin, iri və orta bizneslərin nümayəndələri post-konflikt quruculuğu üzrə iştiraka maraq göstərirlər. Bir çox

beynəlxalq təşkilatlar öz mandatına, o cümlədən, hər bir biznes öz profili üzrə azad olunmuş bölgələrdə sərmayə yatırmağa hazırdı. Böyük həcmdə sərmayə qoyuluşu ilkin səviyyədə çətin olduğuna görə, kiçik və orta biznes səviyyəsindən baxdıqda sərmayələrin cəlb olunması sonrakı dövrlərdə böyük investisiyaların qoyuluşlarına dəstək olacaqdır. Bunun nəticəsində də, Yaponiya və Tayvan texnologiya sahəsi üzrə vençur kapital qoyuluşları özlərini doğrultmuşdurlar. Dövlət-özəl tərəfdaşlığı ilə bir neçə sahələrə sərmayə cəlb oluna bilər. Burada infrastruktur layihələrin bir çoxunun dövlət-özəl tərəfdaşlığı ilə reallaşdırılması səmərəliliyin artmasına, dövlət büdcəsinə düşən yükün azalmasına və özəl sektorun canlanmasına gətirib çıxaracaqdır.

Azərbaycan iqtisadiyyatı dünya iqtisadi sisteminin ayrılmaz hissəsidir. Dünyada gedən iqtisadi proseslərdən kənarda qalmaq mümkün deyil və dünyada yaradılan qabaqcıl texnologiyalardan və istehsal təcrübəsindən istifadə etmədən milli iqtisadiyyatı inkişaf etdirmək mümkün deyildir. İqtisadi müstəqilliyin əsasını hər bir dövlətin, o cümlədən də Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişaf etdirilməsi təşkil edir. Dövlət siyasəti, diplomatiya, elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və tikintinin digər elementləri onun üzərində ucalır. Milli iqtisadiyyatın inkişafı olmadan dövlət səviyyəsində uğurlar əldə etmək mümkün deyildir. Bu həqiqətdir ki, üst quruluş bazaya münasibətdə passiv deyil, dövlətin düzgün istiqamətdə və milli maraqlar baxımından siyasəti bazanın inkişafını stimullaşdıran əsas amillərdən biridir.

Beləliklə, hər bir dövlətin, o cümlədən Azərbaycanın sağlam milli iqtisadiyyatı qarşılıqlı şərtləşmə, baza və dövlətin köməyi əsasında formalaşır, inkişaf edir və iqtisadi müstəqillik üçün şərait yaradılır. İqtisadi azadlıq o deməkdir ki;

1) insanlar tarix boyu yaratdıqları təbii sərvətlərin sahiblərinə çevrilirlər;

2) cəmiyyət özünü dəstəkləmək qabiliyyətinə malikdir və öz imkanlarına və tarixi reallıqlarına əsaslanaraq istehsalı milli mənafelər naminə təşkil etmək üçün ən yaxşı sosial formanı müəyyənləşdirir və formalaşdırır;

3) O, xarici iqtisadi münasibətlərin müstəqil şəkildə və tərəddüd etmədən milli maraqları naminə yaradılması keyfiyyətlərinə malikdir, xarici rəqabətə davamlıdır və iqtisadi təhlükədən qorunur. Hər bir iqtisadi cəhətdən müstəqil dövlət mübarizə aparmaq üçün maliyyə, pul-kredit, gömrük və qiymət siyasətinə malikdir.

Yuxarıda sadalanan şərtlər və amillər iqtisadi artımı təmin etmək üçün kifayət etmir, iqtisadi azadlığa nail olmaq üçün aşağıdakı şərtlər təmin olunmalıdır və onlar bazar iqtisadiyyatına keçərkən yaradılmalıdır;

1) Özünün yetkin milli bazarını və bu bazarın tələblərinə cavab verən struktur yaratmalıdır;

2) müstəqil inkişaf etmək və özünü yenidən yaratmaq imkanına malik olmalıdır;

3) müstəqil, güclü valyuta, maliyyə, kredit və bank sisteminə malik olmalıdır;

4) formalaşmış istehsal, bazar və sosial infrastrukturuna malik olmalıdır;

5) çevik iqtisadi mexanizm və dövlət idarəetmə ənənələri olmalıdır.

1991-1994-cü illər müstəqillik əldə etdikdən sonra bütün problemlərin yarandığı, ölkədə sosial və siyasi problemlərin böhrana çevrildiyi, müharibə getdiyi və azad bazar iqtisadiyyatına keçidin ciddi şəkildə pozulduğu bir dövr idi. İqtisadiyyatın inkişafının ən pis ssenarisi 1992 - ci ildə olub. 1992-94-cü illərdə ÜDM iki dəfədən çox azalmış və 1991-ci ildəki ÜDM-in 48% - ni təşkil etmişdir. 1990-94-cü illərdə ÜDM hər il orta hesabla 13-20% aşağı düşürdü, 1994-cü ildə isə 1629,3 milyon dollar təşkil edirdi. 1990-cı illə müqayisədə 1994 - cü ildə ÜDM 53%, sənaye 62%, kənd təsərrüfatı 44%, istehlak 75%, vergi istehsalı isə 45% azalmışdı. Nəticədə əhalinin həyat səviyyəsi 3,6 dəfə, real orta əməkhaqqı isə 80% aşağı düşmüşdür (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). Həmin dövrdə

həyata keçirilən düzgün olmayan iqtisadi siyasət bank və maliyyə sistemində və xarici ticarətdə ciddi problemlər yaratmışdır.

İnkişaf həmişə məqsəd və ya hədəf sistemini müəyyən edən bir istiqamətə malikdir. Əgər bu istiqamət müsbətdirsə, onda biz tərəqqidən danışa bilərik, əgər bu istiqamət mənfidirsə, onda biz tədricən və ya birbaşa tənəzzüldən danışa bilərik. Başqa sözlə, regionların regional inkişafının xarakteri həmişə müəyyən məqsəd və ya bir neçə məqsədi nəzərdə tutur. Regionun inkişafı çoxplanlı və çoxşaxəli prosesdir. Adətən bu, müxtəlif sosial və iqtisadi məqsədlərin cəlb edilməsi baxımından nəzərdən keçirilir. İqtisadi və sosial inkişaf aşağıdakı fikirləri əhatə edir (Babayev M. və Babayeva L., 2021: s.17):

– İstehsalın və gəlirlərin artması

– cəmiyyətin institusional, sosial və inzibati strukturlarında dəyişikliklər

– ictimai şüurda dəyişikliklər-ənənələrdə dəyişikliklər.

Hazırda bir çox ölkələrin və onların regionlarının iqtisadi inkişafının əsas məqsədi əhalinin həyat keyfiyyətinin artırılmasıdır. Buna görə də iqtisadi və sosial inkişaf prosesi özündə üç komponenti birləşdirir:

**Qrafik 2: regionlarının iqtisadi və sosial inkişafında üç komponent**




**Mənbə:** müəllif tərəfindən aparılan tədqiqat nəticəsində tərtib edilmişdir

İşğaldan azad olunmuş ərazilər işğaldan əvvəlki dövr üçün Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi 35-40% qədərini təmin edirdi. Ermənistanın işğal nəzarəti zamanı bu zona düşmən üçün səmərəsiz olmuş və kənd

təsərrüfatı sektoru üzrə potensialından istifadə edə bilməmişdir. Təkcə Qarabağ ərazisi üzrə 250 min hektardan çox məhsuldar torpaqların mövcud olmasına baxmayaraq, həmin ərazilərin cəmi 7 %-i bu məqsədlər üçün istifadə edilmişdir. Beləliklə də, çayların əsasən şimalda yerləşməsi, bu ərazilərdə yeraltı suların dərində yerləşməsi, əkin üçün sahələrin cənubda olması, işğaldan əvvəl mövcud olmuş irriqasiya sisteminin məhv edilməsi ilə bu ərazilərin istifadə üçün səmərəsiz olaraq qalması ilə nəticələnmişdir. Əkin sahələri üzrə məhsuldarlıq aşağı səviyyədə olmuş və hər hektarda cəmi 10-12 sentner taxıl götürülmüşdür. Halbuki bu rəqəm Azərbaycanın işğalından əvvəl 21-25 sentner olub (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). İşğaldan azad olunan torpaqlarımızda üzümçülük, pambıqçılıq, tütünçülük, meyvə-tərəvəz, baramaçılıq, bostançılıq və bir çox heyvandarlığın inkişafında böyük potensial mövcuddur. Eyni zamanda burada emal sektoru və ərzaq sənayesinin inkişafı üçün potensial var.

Ərazilərin işğaldan azad olunması həm də ölkəmizdəki ərzaq təhlükəsizliyinin təmin olunmasına ciddi töhfələr verəcək. Xüsusən də heyvandarlıq sektoru üzrə məhsulların özünütəminetmə səviyyəsi yaxşılaşacaqdır. Hal-hazırda ölkəmizdə özünütəminetmə səviyyəsini təhlil etdikdə ət və ət məhsullarının 82,5 %, süd ilə süd məhsulları üzrə ümumi 86,2% olduğunu görə bilərik (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). Proqnozlara əsasən, işğaldan azad olunan ərazilərdə təsərrüfat sektoru bərpa ediləndən sonra burada həmin məhsullarla özümüzü tam təmin etməmiz mümkün olacaqdır. Həmçinin Azərbaycanda olan dənli (çəltik daxil deyil) bitkilər üzrə təhlil zamanı özünü təmin etmə səviyyəsinin 70 faizə çatdığını görə bilərik. Torpaqlarımızın azad edilməsi bizə geniş imkan verəcəkdir ki, həmin bu sektorlarda da vəziyyəti yaxşılaşdıraq.

Ötən dövr ərzində düşmənin büdcəsində işğalla bağlı olaraq ümumi 8,6 milyard dollar həcmli xərc yaranmışdır ki, həmin xərc də ölkəyə böyük yükdür. Müqayisəli yanaşma ilə deyə bilərik ki, qeyd edilən müddət ərzində düşmənin iqtisadiyyatında qoyulan birbaşa investisiyaların həcmi ümumi 8 milyard dollar

səviyyəsində idi. Hərbi xərclər üzrə büdcədə dominant olması burada digər sahələr üzrə xüsusilə təhsil, elm, texnologiya, səhiyyə, həmçinin sosial sektorun maliyyələşdirilməsində mühüm problem yaratmışdır. Nəticədə də hər 4 nəfərdən biri yoxsul sayılan Ermənistan üçün dünyada ən militarist iqtisadiyyata sahib ölkələr arasında yer almışdır. Göründüyü kimi, Qarabağın işğal altında saxlanılması Ermənistan üçün heç bir müsbət iqtisadi potensialı olmamışdır və nəzərdə tutduqları bütün "perspektiv planlar"ın hər biri iflasa uğradılmışdır. Başqa sözlə, Ermənistan üçün Qarabağ iqtisadi yük olmuş, Azərbaycan üçün isə bu ərazi iqtisadi potensialdır.

Azad olunmuş bölgələrimiz bərpa olunduqdan sonra mövcud iqtisadi gücümüz təxminən 50 faizə qədər əlavə güc qatılacaqdır. İlk növbədə ərazidə infrastruktur yaradılmalı, bundan sonra isə azad edilmiş bölgələrin potensialının realizəsi məqsədi ilə tələb edilən ilkin şərtlərin hər birinin həllini tapmalıdır. Nümunə kimi ölkəmizdə bögələrin sosial-iqtisadi inkişafıyla bağlı indiyə qədər qəbul edilən və icra olunan Dövlət Proqramlarını göstərə bilərik. Bölgələrimizdə sürətli inkişaf məhz ərazidəki həmin sənədlərin hesabına baş tutmuşdur.

Ümumiyyətlə, Azərbaycanın Qarabağ bölgəsi iqtisadi inkişaf baxımından yeni coğrafi drayveri, yəni artım mərkəzi olacaqdır. Həmin bölgədə sərmayə qoyuluşları və quruculuq işləri üzrə ölkəmizdə ÜDM-in artımını sürətləndirəcəkdir.

### 2.3. Azad edilmiş bölgələrin sektorial inkişaf perspektivləri

Yuxarı Qarabağda və işğal olunmuş ətraf bölgələrimiz tarixi-mədəni dəyərləri, füsünkar təbiəti yanaşı, burada yeraltı və yerüstü sərvətlərlə, zəngin iqtisadi potensialla, geniş turizm imkanlarıyla iqtisadi potensiala sahibdir. İşğaldan azad edilmiş torpaqlarda sektorial inkişaf iqtisadi inkişaf modelinin mərkəzi komponentidir. Bu bölgəmiz kənd təsərrüfatı üstünlüyü, emaledici sənaye və xammal bazası üzrə istehsala uyğundur. Bu torpaqların sektorial inkişafın əsas parametrlərinə diqqət yetirsək görmək mümkündür ki, Ermənistanın istismarı, talanı nəticəsində bölgənin infrastrukturu sıfır səviyyəsinə qədər enib. İşğal nəticəsində

bölgədə minlərlə hektar əkinəyararlı torpaqlar hərbi tullantılarla çirkləndirilib, Azərbaycan iqtisadiyyatı və dünyanın genofondu üçün milyardlarla manat ziyan vurulub.

Hazırda işğaldan azad edilən ərazilərimizdə müxtəlif xidmət sektorlarının bərpası prosesi davam etməkdədir. "Azərişıq" Qarabağda" layihəsi ilə azad edilmiş ərazilərdə xüsusi bir əhəmiyyət kəsb edən strateji obyektlər üzrə elektrik enerjisinin təmin edilməsi üçün tədbirlər planı hazırlığını həyata keçirir. Bu müəssisənin rəsmilərinin qeydlərinə əsasən, işğaldan azad edilən ərazilərimizdə yeni güc mərkəzlərinin yaradılması, habelə ən müasir texnologiyaların, avtomatika sistemlərin və elektron tipli rele mühafizəsinin, məsafədən dispetçer idarəetməsi sisteminin tətbiq olunması nəticəsində 35, 110 və 0,4 kilovolt olmaqla şəbəkələrin yaradılması üçün ÖİN naqillərdən istifadə olunmaqla 35 və 0,4 kilovolt olan elektrik verilişi bu xətlərin çəkilməsi üçün layihələr hazırlanmış və həmin layihələrin mərhələli formada həyata keçirilməsi nəzərdə tutulmuşdur (Rəşid L., 2020).

"Azercell Telekom" MMC də öz növbəsində azad edilmiş bögələrdə ilk mobil infrastrukturu, dördüncü nəsil olan LTE radio baza stansiyaları quraşdırmışdır (https://www.azercell.com/az/about-us/press-releases/news/qarabagda-ilk-mobil-rabit.html, 2020). Digər mobil operatorları olan "Bakcell" və "Nar" şirkətləri də qeyd edilən istiqamət üzrə daxili layihələndirmə üzrə işlərini tamamlayaraq bölgədə fəaliyyət planını reallaşdırmağa başlamışdır.

İqtisadçı və Milli Məclisin deputatı olan Vüqar Bayramovun qənaətlərinə əsasən, bərpa proseslərindən sonra azad olunmuş ərazilərin, xüsusilə Kəlbəcər və Laçının iqtisadi potensialı olduqca böyükdür. Habelə Azərbaycan üzrə ümumi daxili məhsuldakı payı qiymətləndirmə zamanı məlum oldu ki, həmin ərazilərimizdə iqtisadiyyatın və sektorial inkişaf üçün perspektivlərin dəfələrlə artması mümkündür.

Azərbaycanın azad edilmiş torpaqlarının iqtisadi inkişaf potensialı çoxspektrli olmaqla yanaşı, bölgədə kənd təsərrüfatının, turizmin və sənayenin müxtəlif bir çox sahələrini əhatə edir.

Azad olunan torpaqlar pambıqçılıq, tütünçülük, üzümçülük, baramaçılıq, bostançılıq, meyvə-tərəvəz və heyvandarlıq üzrə inkişafda böyük potensiala malikdir. Burada noxud, üzüm və qarğıdalı bölgənin xarekterik bitkilərindən sayılır. Xatırlatmaq lazımdır ki, Ağdam, Füzuli əraziləri işğaldan əvvəlki dövrlər üzrə baxdıqda taxıl, üzüm və pambıq istehsalına görə ölkəmizdə aparıcı rayonlar sırasında olmuşdurlar. Cəbrayıl, Zəngilan və Qubadlı rayonları isə üzümçülüklə fərqlənmişdir. Kəlbəcər, Laçın, Zəngilan və Qubadlıda heyvandarlıq da çox inkişaf edən sahələrdəndir. Gördüyümüz kimi, Azərbaycanın işğaldan azad olunan bu ərazilərinin təbii imkanları, həmçinin kənd təsərrüfatı sektoru üzrə potensialı ərazidə iqtisadiyyatın daha sürətli formada bərpa olunmasına şərait yaradacaqdır.

İşğala qədər Azərbaycanın Qarabağ bölgəsində bir çox beynəlxalq ekspertlər və tanınmış alimlərin iştirakiylə çoxsaylı ekspedisiyalar keçirilib. Alimlərin tədqiqatlarının nəticələrinə əsasən, bu bölgələr biomüxtəlifliyin genetik ehtiyatlarında olan zənginliyinə əsasən ümumi Qafqaz regionunda xüsusilə seçilir. Azərbaycanın Qarabağ bölgəsi bir sıra efiryağlı, dərman, aromatik, bəzək və digər bir çox qeyri-ənənəvi bitkilərin vətəni sayılır. Şuşa şəhərimizdə bitən xarı bülbül isə Qarabağın rəmzi hesab edilir. Unikal sayılan bu bitki artıq Vətən müharibəsində şəhidlərimizin ruhuna ehtiram simvolu olaraq anılır.

Qarabağın ətrafında olan bölgələrimiz: Kəlbəcər, Laçın, Qubadlı, Füzuli, Zəngilan, Ağdam və Cəbrayıl inzibati rayonlarının hər biri böyük xammal bazasına sahibdir. Bu rayonlarımızda qızıl, civə, mis, dəmir, xromit, perlit, mərmər, əqiq, əhəng və digər inşaat materialları üçün böyük xammal bazası mövcuddur. Məsələn, Qarabağın işğaldan azad olunan Cəbrayıl inzibati rayonu üzrə yenidən tikilmə prosesi üçün əksər tikinti materiallarından ehtiyatları bu rayonun öz ərazisində mişar daşı istehsalına yararlı olan Tulus tuf, tikinti qumu, sement istehsalına yararlı sayılan vulkan külü, Çaxmaqçay, kərpic istehsalına yararlı sayılan Qaracallı gil, gəc, xalsedon, qum-çınqıl, əhəngdaşı, yəşəm və geniş meşə ehtiyatları var. Ağdərə rayonunda olan Qızılbulaq, Zəngilan rayonunda olan Vejnəli və Kəlbəcər ərazisində

olan Zod yataqları ərazinin sənaye ehtiyatları üzrə zəngin qızıl yataqlarıdır. Bu bölgələrdə yeni təbii resursların dövriyyəyə cəlb olunması ilə Azərbaycan qərb bölgəsinin inkişafı, o cümlədən metallurgiya kompleksinin, dağ-mədən sənayesinin yüksəlişini təmin etmək potensialına sahibdir. Metallurgiya sektorunun inkişafı üzrə Azərbaycana bir çox sənaye sahələri ilə yanaşı, işğaldan azad edilən ərazilərdə həm də hərbi sənayenin ölkədə inkişafını sürətləndirmiş olacaqdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) şərhinə əsasən də görərik ki, ilkin baxışdan baxdıqda faydalı qazıntıların gələcək üçün istismarı üç istiqamətdə aparılması mümkündür: tikinti materialları, əlvan metallar, nadir metallar və onların metallurgiyası (https://azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin_boyuk_iqtisadi_potensiali_var-1620053/, 2020). Tikinti materialları və əlvan metallar ənənəvi olaraq iqtisadiyyata xas olan sahələrdəndir və mövcud olan ehtiyatlar üzrə bu sahələrdə yeni-yeni güclərin yaranmasına səbəb olacaqdır. Yüksək texnologiyalardan geniş istifadə edilməklə nadir metalların bölgədə mövcudluğu ilə bağlı geoloji işlər və xüsusi araşdırmalar aparıla bilər.

Bölgənin sənaye potensialını isə 4 istiqamət üzrə qiymətləndirmək olar:

**Qrafik 3: Azad olunmuş ərazilərdə sənaye potensialı üzrə 4 istiqamət**




**Mənbə:** müəllif tərəfindən aparılan tədqiqat nəticəsində tərtib edilmişdir

Yuxarda qeyd edilənlərdən əlavə, emal və ərzaq sənayesi üzrə də region inkişaf üçün də əlverişli sayılır.

Azərbaycanın işğaldan azad olunan bölgələri termal və mineral su mənbələri ilə zəngin bir ərazidir. Həmin ehtiyatlardan həm meliorasiya, həm elektrik enerjisi istehsalı, həm də içməli su üçün istifadə oluna bilər. Azərbaycanda su

ehtiyatlarından səmərəli istifadə etməklə həm Ermənistanın ölkəmizin ərazisinə qarşı apardığı hidro müharibə dayandırılacaq, həm də düşmənin özünə də nəzarət imkanı yaranacaqdır. Burada Laçın və Kəlbəcər ərazisindəki şirin su ehtiyatlarını xüsusi vurğulamaq lazımdır. Azərbaycanda hündürlüyünə görə 125 metr olan ən yüksək və su tutumu təxminən 560 milyon kubmetr olan Sərsəng su anbarının işğaldan azad edilməsi ilə Ağdərə, Bərdə, Tərtər, Yevlax , Ağcabədi və Goranboy bölgələri suvarma suyu ilə təmin ediləcək. Bundan başqa, Zəngilan və Cəbrayıl ərazisində olan Xudafərin su anbarının da azad edilməsi 75 min hektar ərazidə yeni suvarılma üçün potensial imkan deməkdir. Həmçinin bu regionda ümumi 11 yeraltı şirin su mənbələrinin yerləşdiyi düşünülür (Rəşid L., 2020).

Azərbaycan ərazisində mineral su ehtiyatlarının demək olar ki, 40 faizə yaxını işğal altında olan bölgələrdə idi. Bunların içərisində Kəlbəcər bölgəsində olan Yuxarı və Aşağı İstisu, Keşdək, Bağırsaq, Laçın bölgəsində Minkənd, İlıqsu, Şuşa bölgəsində Şırlan, Turşsu və digər mineral su ehtiyatları diqqəti xüsusilə cəlb edirdi. Həmin suların həm qablaşdırılaraq satılmasını təmin etmək, həm də bulaqlar üzərində bir çox kurort-rekreasiya zonaları yaratmaq mümkündür.

Azad edilmiş bölgələrin sənaye rekreasiya imkanları əsasən elektrik enerjisi istehsalı ilə su yığımı və onun təchizatı areallarına təsadüf olunur. Qeyd edilən SES-lər Sərsəng və Xudafərindir. Prezidentimiz İlham Əliyevin uzaqgörənliyi nəticəsində Araz çayı üzərində yerləşən Qız qalası və Xudafərin bəndlərinin, elektrik stansiyalarının inşa prosesi və istismarı ilə bağlı İranla gəldiyi razılaşmanın bu gün daha da aktuallığı artmışdır. “Xudafərin” hidroqovşağı Azərbaycana ildə ümumi 368 milyon kilovat/saat elektrik enerjisi istehsal etmək üçün imkan verəcəkdir (https://azertag.az/xeber/1619175, 2020). Burada həmçinin suvarma imkanları da mövcud olacaq.

Aparılan araşdırmalar, istinad edilmiş ekspert rəylərindən də göründüyü kimi, Azərbaycanın Qarabağda və onun ətrafında yerləşən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Ağdam, Füzuli və Cəbrayıl inzibati rayonlarında sənaye, turizm və kənd

təsərrüfatı sektorunun potensialı olduqca genişdir. Bölgədə xammal bazası ilə yanaşı, təbii resurslar da olduqca genişdir. Bütün bunlar bölgədə bərpa prosesindən sonra qısa zamanda iqtisadiyyatının çox sürətlə inkişaf edəcəyini deməyimiz üçün əsas verir.

Azərbaycanda Kiçik Qafqazın dağlıq zonası üzrə olan Qarabağ ərazisi müxtəlif təbiət abidələrlə, meşələrlə, nadir bitkilərlə və heyvan növləriylə məşhurdur. Bölgənin ümumi meşə sahəsi, 247 min hektar olub, o cümlədən də 13197 hektar qiymətli meşə sahələrinə sahibdir. Nadir bitkiləri, təbii landşaftı və heyvanlar aləmini mühafizə olunması məqsədi ilə Kiçik Qafqazın azad edilən bu ərazilərində vaxtilə bir neçə qoruq və yasaqlıqlar mövcüd olmuşdur. Bunlara Bəsitçay Qoruğunu, Qaragöl Qoruğunu, Laçın Yasaqlığını, Qubadlı Yasaqlığını, Daşaltı Yasaqlığını və Arazboyu Dövlət Təbiət Yasaqlığını göstərmək olar. Zəngilan bölgəsində Bəsitçay dərəsi üzrə yerləşmiş qoruqda da çay boyunca çinar meşəliyi ümumi 12 kilometr məsafədə uzanmışdır. Qədimliyi ilə seçilən və "Qırmızı Kitab"a daxil edilən şərq çinarı Qarabağ bölgəsinin zəngin təbiətini, flora və faunasını və qədim tarixi abidələrinin əsasında burada turizm sektorunun inkişafı üçün geniş potensiala sahib olduğunun göstəricisidir. Dünyada ən qədim yaşayış məskənlərindən sayılan Azıx mağarası, ərazinin dağlıq və düzən hissəsində aşkar edilmiş Xocalıdakı dolmenlər, Xankəndidə olan kromlexlər, Alban-Amaras, Gənçəsər (Qanzasar), Yelisey, Ağoğlan, Xudavəng kimi qədim daş abidələr tarixi məbədlərimizin turizm sektoru üzrə imkanlarının xüsusilə geniş olduğunu göstərir (Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, 2022).

Bu gün Qarabağ ərazisində 50-ə yaxın hotel mövcuddur. İşğal zamanı bir neçə xarici şirkətin bu region üzrə investisiya qoyması faktları var. Artıq Azərbaycan ərazilərində olan bu bölgələrdə şirkətlərin qanunsuz yollarla, cinayət xarakterli fəaliyyətləri ilə apardığı siyasətlər birmənalı formada dayandırılacaq. Bundan başqa, investisiya yatıran bir çox sahibkarlar da qanunsuz yolla fəaliyyətlərinə görə cinayət məsuliyyətinə cəlb ediləcəkdir.

Qarabağ bölgəsində təhlükəsizlik təmin olunmaqla, infrastruktur yenilənməsindən və demoqrafik məsələlərin həll olunmaqsından sonra turizm sektorunun təşkili üçün kompleks layihələr planı həyata keçirilməsini real görmək olar. Bu platforma üzrə dövlət, özəl sektor və ölkənin alimlərinin birgə səyi nəticəsində Qarabağın sıfırdan turizm sektoru potensialı işlənib hazırlanmalıdır, o cümlədən də təbii və antropogen turizm sektoru üçün resurslar nəzərdən keçirilməlidir. Azad olunan Qarabağ əsasən dağlıq ərazi olduğundan, burada dağçılıq və alpinizm turizmi üçün potensial mövcuddur. Düşünürəm ki, işğaldan azad edilən Qarabağ təbiətinin qədimliyinə, zənginliyinə və tarixi-mədəni abidələrinin çoxluğuna görə turizm sektoru ekoturizm, etnoturizm zonası olaraq inkişaf edəcək və dünyada turistlərin üz tutacağı region və gözəl turizm məkanlarına sahib bölhə olacaq.

Qarabağ bölgəsində turizm sektorunun inkişafı ilə yanaşı burada ermənilər tərəfindən saxtalaşdırılan bir çox abidələrin də öz tarixlərinə qovuşacağı həllini gözləməkdə olan vacib məsələlərdəndir. Düşmənin işğalı nəticəsində bölgədə talan edilən muzeylərin bərpası prosesi, yeni muzeylərin yaradılması, həmçinin Azərbaycan Ordusunun Şuşadakı şanlı qələbəsini əks etdirən böyük muzey kompleksinin təşkil edilməsi əhəmiyyətli olardı. Düşünürəm ki, erməni vandalizminin və faşizminin izlərini bəşər tariximizdə maddiləşdirmək üçün azad edilmiş rayonlarımızın hər birində xarabalığa çevrilmiş, dağıdılmış binaların nümunələri bölgədə tarixi eksponat kimi saxlanmalıdır. Düşmənin işğalçılıq siyasətlərindən saysız-hesabsız cinayətlərinin hər biri tarixi sübutlar kimi gələcək nəsillər və dünyadakı soydaşlarımız üçün saxlanmalı və ümumən dünya ictimaiyyətində erməni faşizminin mahiyyəti əyani formada açıqlanmalıdır (Rəşid L., 2020).

Fikrimcə, işğaldan azad edilmiş bölgələrdə turizm və istirahət, qida sənayesi, emal sənayesi, tibb, metallurgiya, mədənçıxarma, sənaye, taxılçılıq, üzümçülük, pambıqçılıq, quşçuluq, meyvəçilik, tərəvəzçilik, heyvandarlıq, arıçılıq, tikinti və bir

çox sektorlar üzrə potensial var. Bu sahələrin inkişafı üçün investisiyaların cəlb edilməsi istər qeyri-neft idxalın və ixracının artırılması, istərsə də dəyər zəncirlərinin birləşməsi üçün əhəmiyyətli olacaq. Qarabağ regionunda yenidən qurulma işləri zamanı "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasından istifadə ilə turizm sektorunun dirçəlməsi mümkündür. Bu sahələrdə tikinti sektoru, turizm sektoru, kənd təsərrüfati sektorları üzrə geniş imkanlar var.

Azad edilmiş bölgələrdə yaradılacaq yeni iqtisadi dəyərimiz Azərbaycan dövlətinin maliyyə xərclərini olduqca üstələyəcəkdir. Həmin ərazilərin bərpası nəticəsində bir çox yeni iş yerləri açılacaqdır. Beləliklə də, yeni infrastruktur layihələrinin reallaşdırılması vətəndaşlarımızin işlə təmin olunmasında müsbət təsirlər göstərəcəkdir. Bundan başqa, iqtisadiyyatın inkişafı bir çox yeni iş yerlərinin açılmasına zəmin yaradacaqdır. Müzəffər ordumuzun qələbəsi nəticəsində işğaldan azad olunan bu bölgələrimiz qeyri-neft sektorunun daha da böyüməsinə, o cümlədən də Azərbaycan iqtisadiyyatının daha çox çiçəklənməsinə təkan verəcəkdir.

# III FƏSİL. IŞĞALDAN AZAD EDILMIŞ RAYONLARDA SEKTORIAL INKIŞAFIN TƏMIN EDILMƏSI ISTIQAMƏTINDƏ MALIYYƏLƏŞMƏ MEXANIZMININ FORMALAŞDIRILMASI.

## 3.1. İşğaldan azad edilmiş rayonlarda iqtisadi inkişaf üçün tələb olunan maliyyə mənbələrinin müəyyənləşdirilməsi

Çox vaxt dövlətlər azad edilmiş ərazilərdə iqtisadi inkişaf layihələrini iki əsas növ resurs vasitəsilə maliyyələşdirir. Bunlar güzəştlər və kreditlər kimi dövlət fondlarından gələn institusional resurslar və vergi ödəyiciləri tərəfindən cəlb edilən bazar əsaslı resurslardır. Hökumətin bu sahələrdə yoxsulluğun aradan qaldırılması strategiyası bazar əsaslı resursları təmin etmək, eyni zamanda institusional mənbələr vasitəsilə davam etdirilə bilən cəlbedici investisiya mühiti yaratmaqdır. Strategiyanın uğuru bu cür dəstək mənbələrinin müəyyən edilməsindən asılıdır.

İşğaldan azad edilmiş rayonlarda iqtisadiyyata yönləndirilən investisiyaların həcmi burada inkişaf üçün tələb olunan əsas maliyyə mənbələrindən biridir. Xarici investisiyanın həcmi isə 2014-cü ilə qədər daxili investisiyaya nisbətdə az olmuşdur. Lakin 2015-2018-ci illərdə xarici investisiya daha çox yer tutmuşdur. İşğaldan azad edilmiş rayonlarda xarici investisiyanın cəlb edilməsini təşfiq etmək üçün müəyyən tədbirlər planı hazırlanmalıdır. Bu təşfiq mexanizmi ilə xarici investisiyanın daha da artılması lazımdır. Daxili investisiya 2020-ci ildə 12070,8 milyon manat olmuşdur ki, bu da ümumi iqtisadiyyata yönəldilən investisiyanın 53,7 faizini təşkil edir. Xarici investisiyaların artırılması ilə paralel olaraq ölkədaxilində də insanların və qurumların azad edilmiş rayonlara investisiya qoyuluşlarını artırmaq üçün müəyyən təşfiqedici layihələr hazırlanmasını zəruri edir (Tağıyev T., 2020).

**Qrafik 4: İqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların həcmi (mln manatla)**




**Mənbə:** https://www.stat.gov.az -Azərbaycan Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Dövlətin mühüm funksiyalarından biri də bazar mexanizmində olan çatışmazlıqların aradan qaldırılmasıdır. Bununla belə, qeyd etmək lazımdır ki, indiki şəraitdə Azərbaycanda bazar münasibətlərinin təsiri nəticəsində regionlar üzrə istehsalın səmərəli yerləşdirilməsi imkanları məhduddur. İstehsalın regionlar üzrə səmərəli yerləşdirilməsi ölkədə rəqabətqabiliyyətli və nisbətən iri şirkətlərin olmasını tələb edir. Ona görə də Azərbaycan hökuməti hər bir istehsalın ölkədə yerləşdirilməsi sxemini işləyib hazırlamalıdır. Bu sxem hər bir rayonun iqtisadi potensialının qiymətləndirilməsi əsasında onun inkişaf istiqamətlərini müəyyən etməlidir. Ayrı-ayrı istehsalatların yerinin seçilməsi hökumətə sahibkarlığın təkmilləşdirilməsi istiqamətində görüləcək tədbirləri və infrastrukturun inkişaf istiqamətlərini müəyyən etməyi asanlaşdırır. Məsələn, üzüm istehsalının yaxşılaşdırılmasına, əsasən, Cəbrayılda üstünlük verilməsi, ilk növbədə, bu rayonda şərab zavodlarının tikintisini, üzüm yeşikləri istehsalı müəssisəsinin yaradılmasını nəzərdə tutur. Bu halda hökumət ayrı-ayrı regionlarda yaradılacaq müəssisələri

müəyyən etməklə və onların yaradılması ardıcıllığını əsaslandırmaqla məhdud iqtisadi resursların yer və zaman baxımından səmərəli bölüşdürülməsini təmin edə bilər.

Regional iqtisadi inkişaf meyllərinin və sahə strukturunun formalaşması yerli təbii və əmək ehtiyatlarından, coğrafi mövqedən və digər əlverişli imkanlardan səmərəli istifadəyə əsaslanır. Regionlarda istehsalın iqtisadi səmərəliliyi, rayon iqtisadiyyatının inkişaf səviyyəsi və sahənin optimal strukturu hər birinin ixtisaslaşma səviyyəsindən asılıdır. İqtisadi rayonların müvafiq ixtisaslaşması istehsalın iqtisadi cəhətdən səmərəli şəkildə regional səviyyədə təşkilinin əsasını təşkil edir. İxtisaslaşmış sənaye sahələrinin inkişaf miqyası hər bir regionda istehsal strukturunun formalaşmasına təsir göstərir.

Son illər dünya bazarında kənd təsərrüfatı məhsullarına tələbatın artması və nəticədə bahalaşması bu sahəyə investisiya qoyuluşunun səmərəliliyini artırıb. Qeyd edək ki, üzümçülük, kartofçuluq, meyvəçilik və digər bitkilərin xüsusiyyətləri nəzərə alınmaqla onların ölkə ərazisində yerləşdirilməsinin optimallaşdırılması bazarları nisbətən uzun müddət təzə məhsullarla təmin edəcək. Belə ki, ölkənin müxtəlif bölgələrində eyni məhsulun yetişmə müddəti fərqlidir. Hazırda ölkənin emal olunmuş kənd təsərrüfatı xammalı bazarına xarici ölkələrdən çox ucuz mallar daxildir.

Nəticədə yerli istehsalı tənzimləmək imkanları məhdudlaşır. Bu kontekstdə emal sənayesində istehsal təşkilatının onların idxalının tənzimlənməsi ilə daha sıx əlaqələndirilməsinə ehtiyac var.

İşğaldan azad edilmiş rayonlarda iqtisadi inkişaf üçün tələb olunan maliyyə mənbələrinin əsas təminatçılarından biri də dövlət bələdiyyələridir. Bu regiona maliyyə dəstəyi verilərkən rayon bələdiyyələri arasında resursları ədalitli bölüşdürmək lazımdır. Bunun üçün effektiv maliyyələşmə mexanizmləri qurulmalıdır. İnkişaf şəraitinin rəqabətli olması üçün gəlirlər və xərclər düzgün təhlil edilməlidir. Məsələn, Vergi Məcəlləsinə görə fiziki şəxslər üçün torpaq vergisi

bələdiyyə vergisidir. Ümumiyyətlə, bələdiyyə büdcəsinin gəlirləri bələdiyyənin yerləşdiyi yerdən çox asılıdır. Yerli özünüidarə orqanları kimi bələdiyyələr öz xərclərini maliyyələşdirmək üçün eyni gəlir imkanlarına malik olmalıdırlar, çünki onlar ictimai malları yerində təmin edən əsas qurumdur və bütün bələdiyyələrin səlahiyyətləri qanunla eyni şəkildə müəyyən edilir. Belə olan halda, dövlət gəlirlərinin əsasən mərkəzləşdirilmiş qaydada toplandığı indiki şəraitdə bələdiyyələrin dövlət büdcəsindən maliyyələşdirilməsinin təkmilləşdirilmiş mexanizminin yaradılmasına ehtiyac var. Bu baxımdan gəlir mənbələrinin formalaşmasında, o cümlədən subsidiyaların verilməsində göstərdikləri xidmətlərin dəyərinin və xidmətlərin həcminin, xərclərinin maliyyələşdirilməsində regionlararası fərqləri nəzərə almaq lazımdır. Fikrimcə, bələdiyyələr tərəfindən dövlət xidmətlərinin göstərilməsi zamanı bu maliyyələşdirmə formalarından istifadə qaydalarının işlənib hazırlanması məqsədəuyğundur. Qeyd edək ki, hazırda "Büdcə sistemi haqqında" qanuna əsasən, bələdiyyələr dövlət büdcəsindən vəsait cəlb edə bilərlər.

Bu məqsədlə bələdiyyələr Maliyyə Nazirliyinə aşağıdakı sənədləri və məlumatları təqdim etməlidirlər:

• cari ilin gözlənilən yekunları və ötən ilin büdcəsinin icrasının faktiki yekunları haqqında arayış;

• növbəti büdcə ili üçün yerli büdcələrin nəzərdə tutulan gəlir və xərclərinin, dövlət büdcəsindən ayrılacaq subsidiyaların və digər maliyyə yardımlarının məbləğinin əsaslandırılması;

• əvvəlki ildə yerli büdcənin icra vəziyyəti haqqında auditor rəyi;

• Maliyyə Nazirliyinin sifarişi ilə digər materiallar.

Bu materiallar əsasında dövlət büdcəsində bələdiyyə büdcəsi xərclərinin maliyyələşdirilməsi üçün vəsait nəzərdə tutula bilər. Fikrimcə, bələdiyyə büdcələrinin bu yolla maliyyələşdirilməsi mexanizmi vəsaitlərin ayrılması zamanı qeyri-müəyyənliyi və subyektivliyi artırır və işğaldan azad olunmuş rayonların ən

qısa zamanda bərpasına münbit zəmin yaradır. Bununla əlaqədar olaraq, büdcə ilində bələdiyyələrin maliyyələşdirilməsi meyarlarının və bələdiyyələr vasitəsilə həyata keçiriləcək dövlət xidmətlərinin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin həcminin müəyyən edilməsi zəruridir. Bu zaman bələdiyyələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitin həddi müəyyən edilir.

Bütün bu nüanslar regionlarda xərclərin maliyyələşdirilməsi yollarına aiddir. Üstəlik, həm üfüqi, həm də şaquli disbalansın aradan qaldırılmasının yollarından biri işğaldan azad olunmuş regionların maliyyə potensialının artırılmasıdır (Xudiyev N., 2021). Bu halda dövlət xidmətlərinin göstərilməsi üçün regionlarda vergitutma bazasının artırılması tədbirləri həyata keçirilir. Buna bir sıra yollarla nail olunur.

Beləliklə, fiskal olaraq qeyri-mərkəzləşdirilmiş sistemlərdə hökumət işçi qüvvəsinin və kapitalın hərəkətinə təsir göstərməklə regionda iqtisadi fəallığın artması hesabına maliyyə imkanları baxımından regionlararası fərqlərin azaldılmasına nail olur. Dövlət tərəfindən Qarabağ iqtisadi rayonunun əsasını təşkil edən kənd təsərrüfatı məhsulları istehsalının artırılması istiqamətində tədbirlər həyata keçirilir.

İstehsalçıya dəstək tədbirləri yerli ərzaq istehsalının artırılmasına, təsərrüfatların gəlirlərinin artırılmasına və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasına yönəlib. Hazırda Azərbaycanda kənd təsərrüfatı məhsulları torpaq vergisi istisna olmaqla, digər vergilərdən azaddır. Bununla belə, kənd təsərrüfatı məhsullarının emalı müəssisələri əlavə dəyər vergisini tam ödəyir. Ona görə də yerli kənd təsərrüfatı məhsulları əlavə dəyər vergisindən azad edilsə də, bu amil yerli kənd təsərrüfatı məhsullarına emal zamanı xaricdən gətirilən məhsullara əlavə üstünlük vermir.

Hazırda dövlət investisiya proqramının iqtisadi inkişafa təsiri qiymətləndirilmir. Dövlət investisiyalarının optimal toplusunu müəyyən etmək üçün, ilk növbədə, proqramın effektivliyinin qiymətləndirilməsi metodologiyasının işlənib hazırlanması vacibdir. Hazırda investisiya layihələrinin

qiymətləndirilməsində hələ də istifadə olunan xalis diskontlaşdırılmış dəyər metodundan istifadə etməklə belə bir qiymətləndirmə aparmaq mümkündür.

Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sektorial iqtisadi inkişaf üçün bəzi dövlət tənzimləmələri aşağıdakı kimi ola bilər:

1) Hökumət ayrı-ayrı regionlarda yaradılacaq müəssisələri müəyyən etməklə və onların yaradılması ardıcıllığını əsaslandırmaqla məhdud iqtisadi resursların yer və zaman baxımından səmərəli bölüşdürülməsini təmin edə bilər.

2) Ölkədə ayrı-ayrı regionların inkişafına klaster yanaşmasını təmin etmək üçün innovativ regional komplekslərin yaradılması vacibdir. Belə komplekslərin yaradılması innovasiyaların yayılmasına, təchizat və satış müəssisələrinin yaradılmasına, istehsalın artması nəticəsində (nisbətən kiçik müəssisələrin yerləşməsinə görə) irimiqyaslı qənaətə gətirib çıxaracaq. Bu, innovativ-regional komplekslərdə istehsal olunan məhsulların keyfiyyətini yaxşılaşdıracaq və qiymətləri aşağı salacaqdır.

3) Yerli büdcənin xərclərində transfertlərin xüsusi çəkisinin artırılması bələdiyyələrin gəlir mənbələrini genişləndirmək həvəsini azalda bilər. Bu kontekstdə maliyyə mexanizminin inkişafı zamanı bu cür stimulların azalmaması üçün tədbirlər görülməlidir.

Bir çox ölkələrdə fiskal siyasət iki sahədə tarazlıq mexanizmi (bir tərəfdən iqtisadi artım və iqtisadiyyatın hərtərəfli dayanıqlı inkişafı üçün şəraitin təmin edilməsi, həm də həyat qabiliyyətli büdcə sistemi vasitəsi) kimi çıxış edir. Səlahiyyətli orqanların mövcud büdcə siyasətinin əsas məqsədlərindən biri büdcənin artımının təminatı kimi qəbul edilmiş idarəetmə qərarlarının bütövlükdə ölkənin iqtisadi inkişafına müsbət təsir göstərməsidir. Büdcənin idarə edilməsini təkcə öhdəliklərin yerinə yetirilməsi ilə deyil, həm də cəmiyyətin inkişafı və qeyri-bərabərliyin düzəldilməsi, xüsusən də düşünülmüş balanslaşdırılan siyasətlə bağlı idarə etmək vacibdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası şəraitində Azərbaycanın gələcək inkişafına dair strategiyanın ən mühüm vəzifələri vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi güzəştlərinin tətbiqi və vergi sisteminin sadələşdirilməsidir. Azərbaycanda vergi islahatlarının əsas məqsədi ölkədə maliyyə təhlükəsizliyinin təmin edilməsi, kiçik-orta sahibkarlığın inkişafı və büdcənin qurulması üçün əlverişli şəraitin yaradılmasıdır. Kiçik və orta sahibkarlıq üçün əlverişli korporativ mühitin yaradılması iqtisadiyyatın şaxələndirilməsinə, habelə qeyri-neft sektorunun inkişaf prinsiplərinə uyğun genişlənməsinə, burada yeni iş yerlərinin açılmasına, eləcə də müasirləşdirilməsinə öz töhfəsini verir. Dövlət idarəetmə sistemində vaxtında aparılan islahatlar Azərbaycana sektorial inkişaf çağırışlarına adekvat cavab verməklə yanaşı, həmçinin ərazilərin bərpasından sonrakı dövrlər üçün müdafiə mexanizmləri yaratmağa imkan verəcək.

İqtisadi inkişaf üçün tələb olunan maliyyə mənbələrinə daxili maliyyə resursları vergilər, kapital bazarı, daxili borclanma, könüllü fərdi və korporativ əmanətlər və inflyasiya nəticəsində əldə edilən gəlirlərdən, yəni inflyasiya maliyyələşdirməsi daxildir. İşğaldan azad edilmiş rayonlar sürətli iqtisadi inkişafı həyata keçirməlidir. Ərazinin müstəqilliyinin qorunub saxlanması, xalqımızın rifahının yüksəldilməsi iqtisadi inkişafdan asılıdır.

Azad edilmiş rayonlarda iqtisadi inkişafın həyata keçirilməsində dövlətin üzərinə böyük vəzifələr düşür. İqtisadi inkişafa dövlətin əlində əhəmiyyətli investisiya imkanları olmadan nail olmaq mümkün deyil. Dövlət ilk növbədə mövcud resursların itirilməsinin və ya israfının qarşısını almalıdır. Bu gün Azərbaycanda həyata keçirilən mühüm tədbirlərə baxmayaraq qeyri-formal iqtisadiyyat mövcud olmaqda davam edir. Vergi itkiləri və vergidən yayınma dövlətin vergi daxilolmalarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olur. Hətta mövcud qanunlar çərçivəsində vergi itkilərinin və vergidən yayınmanın qarşısının alınması dövlətin investisiya üçün istifadə edə biləcəyi resursları artıracaq. Bunun üçün daha effektiv vergi nəzarəti mexanizmi təkminləşdirilməlidir.

Dövlət büdcəsinin mühüm xərc maddələrindən biri də borclanmanın artması ilə əlaqədar faiz xərcləridir. Dövlət büdcəsindəki kəsirlərin azaldılması, büdcə kəsirinin borclanmadan başqa üsullarla maliyyələşdirilməsi və mərkəzi hökumətin borclarının yenidən qurulması ilə ödənilən faizlər azalacaq və investisiya üçün yeni resurslar yaranacaq. Daxili borcların əsas və faiz ödənişlərinin təxirə salınması dövlət büdcəsini yüngülləşdirəcək.

Dövlət obyektlərinin israf edilməsi həm də investisiya üçün istifadə oluna bilən əhəmiyyətli resursları israf edir. Xüsusən də qanun pozuntularının qarşısının alınması dövlətin yeni investisiyaları üçün resurslar yaradacaq.

Müasir şəraitdə ölkə iqtisadiyyatına və dövlət büdcəsinə mənfi təsir göstərən 3 hal mövcuddur. Bunlardan birincisi pandemiyanın izləri, ikincisi müharibə zamanı və onnan sonrakı bərpa dövründə sərf olunan resurslar, üçüncüsü isə neftin qiymətinin dünya bazarında aşağı həddlərdə dalğalanmasıdır. Bütün bu hallar ölkə iqtisadiyyatını olduqca çətin vəziyyətə salır. Bu çətin vəziyyətdən xilas olmaq iqtisadi inkişaf yolu ilə mümkündür. İqtisadi inkişafı həyata keçirmək üçün lazım olan resurslar işğaldan azad edilmiş rayonlarda mövcuddur. Bu resursların əldə edilməsi və xalqın bu prosesdə səmərəli iştirakını təmin edəcək planlı iqtisadiyyatla və demokratik şəraitdə dövlətçilik prinsipləri əsasında maliyyə mənbələrinin müəyyənləşdirilməsi lazımdır.

## 3.2. Maliyyə mənbələrinin sektorial inkişafının təmin edilməsi üçün maliyyə mexanizminin qurulması

İşğaldan azad edilmiş rayonlarda rəqabətqabiliyyətli innovativ iqtisadiyyatın formalaşdırılması, o cümlədən aqrar sektorun davamlı inkişafı, burada ərzaq təhlükəsizliyinin və müstəqilliyinin təmin edilməsi, kənd əhalisinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi, təbii ehtiyatlardan səmərəli istifadəsi və ətraf mühitin mühafizəsi dövlət iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir.

İşğaldan azad edilmiş rayonlarda sektorial inkişafın təmin edilməsi istiqamətində istehsalın şaxələndirilməsinin təşkili, enerji, yol infastrukturu, torpaq-su münasibətlərinin yaxşılaşdırılması, aqrobiznes və yüksək dəyər zəncirinin inkişafı üçün ərazidə əlverişli şəraitin yaradılması, kooperasiya əlaqələrinin inkişafına dəstək, bazar mexanizmlərinin, informasiya-kommunikasiya texnologiyalarının ərazidə geniş tətbiqi məqsədi ilə dövlət tədbirlər planı işləyib hazırlanmalı və həyata keçirilməlidir.

Əlverişli aqrobiznes mühitinin və əlavə dəyər zəncirinin yaradılması, kənd təsərrüfatı məhsullarının alqı-satqısında bazar prinsiplərinin geniş şəkildə tətbiqini, keyfiyyətə nəzarət infrastrukturunun inkişafını, ixracın təşviqini və yüksək əlavə dəyərli kənd təsərrüfatı məhsullarının istehsalını təmin etmək, o cümlədən hədəf beynəlxalq bazarlarda rəqabətədavamlı qida məhsulları, hökumətin rolunun azaldılması və sənayenin investisiya cəlbediciliyinin artırılması mexanizmlərinin tətbiqi, aqrar-ərzaq sektorunun modernləşdirilməsi, şaxələndirilməsi və sabit artımının dəstəklənməsi üçün özəl investisiya kapitalının axınının artırılması lazımdır.

Azad edilmiş rayonlarda sektorial inkişafın təmin edilməsində təbii ehtiyatlardan səmərəli istifadənin və ətraf mühitin mühafizəsinin təmin edilməsi sisteminin təkmilləşdirilməsi, torpaq və su ehtiyatlarından, meşə ehtiyatlarından burada səmərəli istifadənin təmin edilməsi lazımdır. Kənd təsərrüfatında dövlət idarəçiliyi strukturunun yenidən qurulmasını və daha da inkişafını təmin edən müasir idarəetmə sistemlərinə diqqət edilməlidir.

İşğaldan azad edilmiş rayonlarda təsərrüfatlarda əmək məhsuldarlığının artırılmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə, yüksək əlavə dəyər yaradılmasına yönəldilmiş sahəvi proqramların işlənib hazırlanması yolu ilə səmərəliliyin artırılması və dövlət xərclərinin mərhələli şəkildə yenidən bölüşdürülməsi mühüm addımlardan biridir.

Sektorial inkişafda kənd təsərrüfatında istehsal və elmi-tədqiqat, tədris və məsləhət xidmətləri ilə inteqrasiya olunmuş bilik və məlumatların yayılmasının səmərəli formalarından istifadəni təmin edən elmin, təhsilin, informasiya və məsləhət xidmətləri sisteminin inkişafının təmin edilməsi üçün maliyyə mexanizminin qurulmasını zəruri edən amillərdəndir.

Kənd yerlərinin balanslaşdırılmış və sabit inkişafının təşviqini təmin edən kənd inkişafı proqramlarının həyata keçirilməsi üçün maliyyə mexanizminin qurulması lazımdır.

Maliyyə mexanizminin qurulmasında müasir informasiya texnologiyalarından geniş istifadə etməklə statistik məlumatların toplanması, təhlili və yayılmasının etibarlı üsullarının həyata keçirilməsini təmin edən şəffaf sənaye statistikası sisteminin yaradılmalıdır. Bu kontekstdə bazar münasibətlərinin tələblərinə uyğun olaraq kənd təsərrüfatının maliyyə dayanıqlığının yaxşılaşdırılması kənd təsərrüfatı istehsalının səmərəli maliyyələşdirilməsinin əsas şərtidir.

Təbii ki, kənd təsərrüfatı istehsalının artırılması, xalqımızın ekoloji təmiz məhsullara olan tələbatının ödənilməsi aktual problemlərdən biridir, ona görə də ərazidə kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün istehsalçıların maliyyə dəstəyi əsas amillərdəndir. Yəni müasir texnologiyadan istifadə etməklə kənd təsərrüfatı məhsullarını artırmaq mümkündür. Ona görə də sirr deyil ki, kommersiya banklarının kreditləşməsi onların fəaliyyətinin ən mühüm maliyyə mənbələrindən biridir. Təsərrüfatların maliyyələşdirilməsi üçün bir neçə növ bank krediti yaradılmalıdır. Xüsusilə, adi güzəştli kredit, start-up mikrokreditləri və istehsalın genişləndirilməsi üçün mikrokreditlər banklar tərəfindən sektorial inkişafa təşfiq etməlidir.

Milli adət-ənənələrə uyğun işləməklə ölkənin aqrar sektorunda kənd təsərrüfatı məhsullarının istehsalı, unikal rəqabətqabiliyyətli məhsulların yaradılması, ərazilərin təbii yerləşməsi barədə hesabatların verilməsi, həm ölkə

daxilində, həm də böyük tələbat olan məhsullar səviyyəsində ixraca tələbatı artıracaq.

Sektorial inkişafın təmin edilməsində kiçik biznesin və özəl sahibkarlığın təşviqi əsas strateji amillərdən biridir. Hökumətin bu ərazilərdə bir sıra qərarları ilə başlanmış kiçik sahibkarlıq subyektlərinin yaradılması və həvəsləndirilməsi prosesi gələcək illərdə iqtisadiyyatda mühüm müsbət dəyişikliklərə səbəb olacaq, hərtərəfli inkişaf üçün imkanlar yaradacaqdır. Dövlət və nəzarət orqanları tərəfindən onların fəaliyyətinə qeyri-qanuni müdaxilələrin qarşısı alınmalı, sahibkarlıq subyektlərinin dövlət orqanlarından qeydiyyata alınması proseduru kəskin şəkildə sadələşdirilməlidir.

Qeyd edək ki, sektorial inkişafının təmin edilməsi üçün kiçik biznes və özəl sahibkarlıq subyektlərinin fəaliyyətinin tam müasirləşdirilməsi, onların müasir innovativ texnologiyalar əsasında təşkili mexanizminin qurulması mühüm məsələyə çevrilir. Dünyada innovasiyaların yüksəlişi ilə kiçik biznesin fəaliyyətində kiçik biznesdən istifadə etmədən yeni rəqabətqabiliyyətli məhsullar yaratmaq, daxili bazarı müxtəlif mal və xidmətlərlə doldurmaq mümkün deyil. Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirilən siyasət özəl biznesin inkişafına zəmin yaratmış, innovasiya infrastrukturu yaradılmışdır.

Maliyyə mənbələrinin sektorial inkişafının təmin edilməsində aşağıdakı vəzifələri yerinə yetirməklə kiçik biznes və özəl sahibkarlığın dəstəklənməsi və onların maliyyə mexanizmlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir:

-Dövlət kreditlərinin stimullaşdırılmasının təkmilləşdirilməsi;

-Sahibkarların xarici investorların iştirakı ilə fəaliyyətlərinin genişləndirilməsi üçün imtiyazlı stimulların təmin edilməsi;

Ümumiyyətlə, dünyanın inkişaf etmiş iqtisadiyyatlarının təcrübəsi göstərir ki, sektorial inkişafda kiçik biznes və özünüməşğulluq fərdi sahibkarlıq üçün əlverişli mühitin yaradılması və maliyyə mexanizmlərinin düzgün qurulması ölkə

iqtisadiyyatının sürətli artımını təmin edəcək, əhalinin sayının artmasında mühüm amil olacaqdır. Hökumətin davamlı iqtisadi artımın təmin edilməsi istiqamətində həyata keçirəcəyi ardıcıl maliyyə siyasət nəticəsində kiçik biznesin və özəl sahibkarlığın ümumi daxili məhsulda xüsusi çəkisi artacaqdır. Düzgün maliyyə mexanizmləri ilə investisiya yönəldilmiş işğaldan azad edilmiş rayonlardakı müəssisələr ölkə iqtisadiyyatında aparıcı qüvvəyə çevriləcək, bazarı rəqabətqabiliyyətli mal və xidmətlərini artıracaq, əhalinin gəlirlərinin və rifahının artırılmasının əsas mənbəyinə çevriləcək, məşğulluqla bağlı problemlərin həllində əsas amil olacaqdır. Ona görə də işğaldan azad olunmuş rayonlarda kiçik biznes və özəl sahibkarlığın dəstəklənməsi, onların maliyyə mexanizmləri ilə yanaşı, maddi və mənəvi həvəsləndirmə sisteminin təkmilləşdirilməsi, vergi qanunvericiliyinin yumşaldılması məqsədəuyğundur.

Regionların müasir şəraitdə təkmilləşdirilməsində davamlı dəyişikliklər iqtisadi sistemin xarakterik xüsusiyyətidir. Dünya praktikasında iri təsərrüfatlarının formalaşdırılmasının dəstəklənməsi üçün maliyyə mexanizmlərindən daha geniş istifadə edilir. Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sektorial inkişaf üçün iqtisadi və maliyyə mexanizmlərinin qurulmasının vacibliyinə kənd təsərrüfatı fonunda nəzər salaq.

İqtisadi mexanizm bütövlükdə kənd təsərrüfatında səmərəli iqtisadiyyatın formalaşmasına və kənd təsərrüfatı istehsalçılarının rentabelliyinin yüksəldilməsinə şərait yaradır. İri kənd təsərrüfatı müəssisələrinin formalaşdırılmasının maliyyə mexanizminin inkişafı ilk növbədə kənd təsərrüfatı istehsalının rentabelliyinin artırılmasına xidmət edir. Regionların kənd təsərrüfatı müəssisələrinin maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və stimullaşdırılması istiqamətində tədbirlər görülməlidir.

İşğaldan azad edilmiş regionlarda xüsusilə aşağı gəlirli, riskli, iqlim şəraitindən asılı və bazar şərtlərinə həssas olan sektorlarda maliyyə mexanizmlərindən istifadə edilməlidir. Bu baxımdan, ölkənin ərzaq bazarının maddi əsasını təşkil edən kənd

təsərrüfatında dayanıqlı inkişafın təmin edilməsi üçün iqtisadi mexanizmlərdən istifadənin səmərəliliyinin artırılması və bu tələblərə cavab olaraq iqtisadi mexanizmin tərkib hissəsi kimi maliyyə mexanizminin davamlı olaraq təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Maliyyə mexanizmi bütövlükdə maliyyə tənzimlənməsi və maliyyə təminatı vasitəsilə ictimai istehsala əhəmiyyətli təsir göstərir (Quliyeva A.E., 2020). Maliyyə mexanizmi bütövlükdə regionların təsərrüfat mexanizminin mühüm tərkib hissəsidir və bu mexanizm özünümaliyyələşdirmə, kreditləşmə və geri qaytarılma ilə maliyyələşdirmə yolu ilə həyata keçirilir. Bu vasitələrlə maliyyə təminatının həyata keçirilməsi və istifadəsi cəmiyyətin optimal inkişafının təmin edilməsi ilə bağlıdır (Quliyeva A.E., 2021).

Praktikada maliyyə mexanizmi kifayət qədər mürəkkəbdir. Bu baxımdan iri sənaye müəssisələrinin və dövlətin maliyyə mexanizmləri fərqlənir. Təsərrüfat subyektinin maliyyə mexanizmi mikroiqtisadiyyatın ən mühüm elementlərindən biridir. Bu mexanizm əsasən müəssisədaxili maliyyə münasibətlərinin nisbətini, eləcə də digər müəssisə və təşkilatlar arasında maliyyə münasibətlərini, maliyyə-sənaye qrupları, o cümlədən holdinqlər arasında maliyyə münasibətlərini əks etdirir. Regionların maliyyə mexanizmləri maliyyə münasibətlərinin kifayət qədər müxtəlif formalarını özündə cəmləşdirir və mürəkkəb struktura malikdir

Ümumiyyətlə, problemə əsas və üstqurum münasibətləri baxımından yanaşdıqda, maliyyə mexanizmi korporativ mexanizmin ayrılmaz hissəsi olan təsərrüfat mexanizminin tərkib hissəsidir. Korporativ mexanizm digər mexanizmlərə nisbətən daha çox elementləri özündə birləşdirir. Korporativ mexanizmə təsərrüfat mexanizmləri və idarəetmə mexanizmləri, istehsalın təşkili üzrə mövcud sistemlər və onların təşkili prinsipləri daxildir. İqtisadi mexanizmə maliyyə mexanizmi, digər büdcə mexanizmləri, qiymətqoyma mexanizmləri və s. daxildir. Bu mexanizmlər - ilk növbədə institusional, qiymət, kredit, büdcə, inzibati və digər mexanizmlər - iqtisadi inkişafın sürətləndirilməsində vacib rol oynayır. Problemə bu aspektdən yanaşsaq, tarazlaşdırıcı xüsusiyyətlərə malik maliyyə

mexanizmi sektorial iqtisadi inkişafın dəstəklənməsi və onun iqtisadi alətlərlə tənzimlənməsində regionların iri sənaye müəssisələrinin formalaşmasında və inkişafında mühüm rol oynayır. Bu mexanizmlər həm də istənilən sahənin maliyyə-kredit infrastrukturunu təşkil edir və bu infrastruktur reallıqda maliyyə, büdcə və kredit sistemlərini birləşdirən nisbətən müstəqil elementdir.

Bazar münasibətlərinin formalaşmasında əsas şərtlərdən biri rəqabət mühitinin inkişafı, müxtəlif korporativ formaların yaradılması, maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi, o cümlədən iqtisadiyyatın prioritet sahələrinin inkişafına dövlət tərəfindən dəstək verilməsidir. Bu regionlarda dövlət tərəfindən prioritet qəbul edilən sahələrin inkişafı, rəqabətqabiliyyətli məhsulların istehsalı və satışı kortəbii rəqabətə məruz qalmamalı və aqrar siyasətin əsas istiqamətlərindən biri kimi dövlətin himayəsində olmalıdır (Ibrahimov I.H., 2016: s. 243).

Regionların maliyyə mexanizmində kənd təsərrüfatı istehsalının xüsusiyyətləri, eləcə də dövriyyə vəsaitlərinin tamamlanması nəzərə alınmaqla bu sahəyə investisiya qoyuluşunun artırılması, kənddə sosial tədbirlərin həyata keçirilməsi üçün alət və üsullar kompleksi öz əksini tapmışdır. Bu, ilk növbədə büdcə vəsaitlərinin və kreditlərin istifadəsi ilə bağlıdır.

Aqrobiznesin inkişafının maliyyə təminatında əsas ziddiyyətlər həm sənaye, həm də kənd təsərrüfatı sektorunun maliyyələşdirilməsi səviyyəsində regional balansın pozulmasıdır. Məlumdur ki, dövlət büdcəsində maliyyə vəsaitlərinin həddindən artıq mərkəzləşdirilməsinə baxmayaraq, kənd təsərrüfatı rayonlarının sosial strukturu və aqrar-sənaye kompleksinin maliyyə təminatı ilə bağlı ən mühüm ümummilli problemlərin həllinə hələ də nail olunmayıb (Babaeva Z.S. və digərləri, 2017).

İşğaldan azad olunmuş regionlarda maliyyə sistemi əsasən kənd təsərrüfatının, sənaye istehsalının, turizm sektorunun maliyyə təminatına yönəldilir ki, bu da fondların formalaşdırılması və istifadəsini əhatə edir və təsərrüfat subyektləri

arasında münasibətləri tənzimləyir. Bundan əlavə, bu sahədə büdcədənkənar mənbələrdən istifadə ən məqsədəuyğun hesab olunur (Sarıyeva İ., 2021).

Təhlil göstərir ki, bir-biri ilə sıx əlaqəli və bir-birini tamamlayan qiymət və qeyri-qiymət üsulları sənaye istehsalı və kənd təsərrüfatı istehsalının maliyyə təminatının tələb olunan səviyyəsinin saxlanmasına, büdcə və kredit resurslarının optimal strukturunun müəyyənləşdirilməsinə kömək edir. Eyni zamanda, dövlətin iqtisadi potensialı sahənin inkişafına yönəlib.

Təcrübə göstərir ki, makroiqtisadi səviyyədə kənd təsərrüfatının maliyyələşdirilməsinin kəskin problemləri dövlətin məhdud iqtisadi imkanları şəraitində özünü göstərir. Bu şəraitdə regional idarəetmə orqanlarının üzərinə maliyyə mexanizmlərini tənzimləmək üçün konkret vəzifələr düşür. Regional idarəetmə orqanları tərəfindən həyata keçirilən maliyyə tənzimlənməsi, ilk növbədə, regionda kənd təsərrüfatının inkişafının spesifik xüsusiyyətlərinə və məqsədlərinə adekvat olmalıdır (Daşsalahlı R., 2021). Bu, regionların büdcə imkanlarından asılıdır. Bu kontekstdə yerli istehsalçıların regional büdcələr hesabına dəstəklənməsi bazar iqtisadiyyatı şəraitində yeni maliyyə mənbələrindən biri hesab oluna bilər. İnkişaf etmiş ölkələrdə dövlət kənd təsərrüfatı məhsulları istehsalçılarını əsasən büdcə və kredit tədbirləri ilə dəstəkləyir.

Nəzərə almaq lazımdır ki, iri kənd təsərrüfatı müəssisələrinin büdcə-kredit üsulları ilə dəstəklənməsi dövriyyə vəsaitlərinə və risklərin sığortasına olan tələbatın ödənilməsində, bütövlükdə nağd pula olan tələbatın ödənilməsində mühüm rol oynayır. İşğaldan azad olunmuş regionlarda kənd təsərrüfatında geniş təkrar istehsalın həyata keçirilməsində kapitalın olması mühüm rol oynayır. Bəzi hallarda kənd təsərrüfatında kapital ehtiyatlarının olmaması aqrotexniki tədbirlərin səmərəli həyata keçirilməsinə imkan vermir. Bu, kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsinə və ümumi istehsalın azalmasına səbəb olur. Bu, son nəticədə ölkənin ərzaq bazarında konyuktur dalğalanmalarına gətirib çıxarır. Bu şəraitdə ərzaq bazarında yerli istehsalın payının azalması müşahidə olunur ki, bu da ölkənin ərzaq

təhlükəsizliyinin təmin edilməsində dağıdıcı tendensiyalar yaradır. Məhz buna görə də ölkə xarici dövlətlərlə yanaşı, siyasi və iqtisadi cəhətdən beynəlxalq birlikdən asılıdır. Kənd təsərrüfatında iri kənd təsərrüfatı müəssisələrinin rolunu məhz maliyyə mexanizmləri oynayır. Bu mexanizmlər əsasən büdcə vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif güzəştlərin və subsidiyaların tətbiqini nəzərdə tutur. Regionlarda kənd təsərrüfatı məhsulları istehsalçılarının büdcə subsidiyaları konkret prioritet sahələr üzrə həyata keçirilməlidir. Bu zaman ünvanlama prinsipləri qorunmalı, şəffaflıq təmin edilməlidir.

İşğaldan azad olunmuş regionlarda iri kənd təsərrüfatı müəssisələrinin yaradılması üçün maliyyə mexanizminin təkmilləşdirilməsi tədbirləri çərçivəsində kənd təsərrüfatı istehsalçılarının kredit resurslarına çıxış imkanlarının genişləndirilməsi ilkin şərtdir. Fikrimcə, kənd təsərrüfatı müəssisələrinin kredit resurslarına çıxış imkanlarının genişləndirilməsi müsbət iqtisadi təzahürlərə səbəb ola bilər. Beləliklə, regionlarda iri kənd təsərrüfatı müəssisələri, bir qayda olaraq, kiçik müəssisələrdən fərqli olaraq, öz üstünlüklərinə malikdir. Bu şərtlərdə kredit təşkilatları iri fermer təsərrüfatlarına kredit verməkdə daha çox maraqlı ola bilər, çünki onların gəlirlilik dərəcəsi daha yüksəkdir və risk azdır. Eyni zamanda, kənd təsərrüfatının xüsusiyyətləri nəzərə alınmalıdır. Kənd təsərrüfatı risklərinin sığortası sistemi, ilk növbədə, iri kənd təsərrüfatı müəssisələrinin formalaşması üçün büdcə mexanizmində əsas təkmil olmalıdır.

İşğaldan azad olunmuş regionlarda iri korporasiyaların formalaşmasında prioritet sahələrin seçilməsinə üstünlük verilməli və bu çərçivədə maliyyələşdirmə tədbirləri, eləcə də maliyyə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri həyata keçirilməlidir.

Qarabağ regionunda iri müəssisələrinin yaradılması üçün maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsinin mühüm cəhətlərindən biri ondan ibarətdir ki, kreditlər üzrə faiz dərəcələrinin əhəmiyyətli hissəsinin dövlət büdcəsindən maliyyələşdirilməsi son nəticədə istehsalçının kreditor borcunun aradan

qaldırılmasına gətirib çıxara bilər. Bu sistem inkişaf etmiş ölkələrdə geniş tətbiq olunur. İqtisadi cəhətdən səmərəli olan sahibkarlıq subyekti xarici rəqabətin mənfi təsirlərinə görə öz rəqabət üstünlükləri ilə rəqabət apara bilmir. Bu şəraitdə dövlət lazımi tədbirlər görməli və daxili bazarın qorunması üçün tədbirləri tamamlamalı, eyni zamanda istehsalı stimullaşdırmalıdır.

## 3.3. Sektorial inkişafın davamlılığı üçün maliyyə nəzarəti mexanizminin formalaşdırılması

Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sektorial inkişafın davamlılığı üçün investisiya qanunları ayrıca hazırlanmalı və şəffaflığın artırılması üçün yerli hakimiyyət orqanları, investorlar və digər maraqlı tərəflər cəlb edilməlidir. İcazə və lisenziyaların verilməsi üzrə mövcud mexanizmlərin təkmilləşdirilməsi üzrə tədbirlər planının hazırlanması, vahid informasiya sisteminin yaradılması, bələdiyyə idarələrinin bütün səviyyələrdə qərar qəbulu proseslərinə cəlb edilməsi lazımdır. Bu, investisiyalarla bağlı qərarların qəbul edilməsində mürəkkəbliyi azaltmalıdır.

Müxtəlif səviyyələrdə investisiyaların cəlb edilməsi üçün mövcud mexanizm təkmilləşdirilməlidir. Məsələn, investisiyaların təşviqi tədbirləri şəklində bütün səviyyələrdə investisiyaların cəlb edilməsi üçün açıq və şəffaf prosesə ehtiyac var. Xarici sərmayədarları cəlb etmək, rəqabəti artırmaq və xarici investisiyalar vasitəsilə iqtisadi fəallığı stimullaşdırmaq üçün vahid informasiya məkanını inkişaf etdirmək lazımdır.

Kiçik və orta sahibkarlıq üçün əlverişli institusional mühitin yaradılması iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun şaxələnmə prinsipi üzrə genişlənməsinə, həmçinin yeni iş yerlərinin açılmasına və eyni zamanda, onun modernləşməsinə səbəb olacaq. Qlobal qeyri-sabitlik şəraitində vergi siyasəti, ilk olaraq, real sektorun dəstəklənməsinə yönəlməli, investisiya siyasətinin və iqtisadi rəqabət qabiliyyətinin qorunmasında stimullaşdırıcı olmalı, çevik olmalı, innovativ sahələrin inkişafına dəstək verməlidir. Ona görə də, Azərbaycanın işğaldan azad

olunmuş rayonlarında sektorial inkişaf üçün maliyyə mexanizmləri önəm qazanır (Qocayev İ., 2021). Mövcud vergi dərəcələrinə yenidən baxılması zərurəti həm iqtisadi, həm də sosial baxımdan aktual məsələ kimi görünür. Mütərəqqi miqyasdan istifadə, ilk növbədə, təkcə respublika deyil, həm də regional büdcələrin gəlirlərini artırmağa imkan verəcək ki, bu da əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş sosial proqramların həyata keçirilməsində istifadə oluna bilər. İki "Doing Business" indikatoru həm Biznesə başlamaq, həm də vergi ödəməklə birbaşa vergi məsələləri ilə bağlıdır. Ölkəmiz hər iki göstərici üzrə mövqeyini xeyli yaxşılaşdırıb, son bir ildə Azərbaycan “Biznesə başlamaq” üzrə 18-dən 9-cu yerə, “Vergilərin ödənilməsi” üzrə isə 35-dən 28-ci yerə yüksəlib (World Bank Group, 2020). Bu göstəricilər ondan xəbər verir ki, Azərbaycanın işğaldan azad olunmuş rayonlarında sektorial inkişaf üçün böyük potensial var (Rəşid L., 2020). Kölgə iqtisadiyyatının azaldılması, elektron ödənişlər infrastrukturunun inkişafı və institusional bazanın gücləndirilməsi, innovativ texnologiyaların ölkədə ərazidə tətbiqinin genişləndirilməsi, fiziki və sahibkarlıq subyektlərinin elektron ödəniş xidmətlərindən ərazidə istifadəyə cəlb edilməsi Dövlət Vergi Xidmətinin fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir.

Nağdsız ödənişlərin həcmini artırmaq və əhatə dairəsini genişləndirmək məqsədilə vergi xidməti bu sahədə beynəlxalq tendensiyaları daim diqqət mərkəzində saxlayır (Mamedov Z.F., Gasimov A., 2020). Dövlət Vergi Xidməti (DVX) tərəfindən “2020-2022-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın icrasına dair Tədbirlər Planı təsdiq edilib və bu sahədə fəaliyyətin səmərəliyinin təşkili üçün müasir standartlar tərtib edilib (https:// www.taxes.gov.az/ru /page/umumi-melumat, 2022).

Bundan əlavə, 2020-ci il iyunun 2-də Azərbaycanda Vergi Məcəlləsinə dəyişikliklər qəbul edilib, müəssisələr üçün mənfi nəticələrin azaldılması məqsədilə müvəqqəti vergi güzəştləri və məzuniyyətlər tətbiq edilib. Tədbirlərə il ərzində torpaq və əmlak vergilərinin ləğvi, habelə pandemiyadan xüsusilə ağır zərər çəkən

müəssisələr üçün gəlir vergilərinin və sosial sığorta haqlarının azaldılması daxildir. Hökumət həmçinin fərdi sahibkarlara və biznes sahiblərinə maliyyə dəstəyi göstərməyə və onlara əmək haqqının ödənilməsinə kömək etməyə çalışıb. Bunun üçün birbaşa olaraq aidiyyəti şəxslərin bank hesablarına vəsaitlərin köçürülməsi üçün onlayn platformadan istifadə edilir. 2020-ci ilin iyul ayının sonunadək 100 mindən çox mikro sahibkara 63,55 milyon manat (təxminən: 37,4 milyon ABŞ dolları) vəsait daxil olub, 30 minə yaxın sahibkarın əmək haqlarının ödənilməsinə köməklik göstərilməsi ilə bağlı müraciəti isə ümumilikdə 98 milyon manatla (təxminən: 57,7 milyon dollar) müsbət cavab alıb. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan dövləti işğaldan azad olunmuş rayonlardan sosial-iqtisadi inkişaf üçün də bənzər tədbirləri həyata keçirə və sahibkarları maliyyə resurslari ilə təmin edə bilər. Düşünürəm ki, bu ərazilərdə sahibkarlığı təşviq etmək üçün azad iqtisadi zonalar yaradıla, uzunmüddətli vergi azadolmaları tətbiq edilə bilər.

Müasir şəraitdə Azərbaycanın gələcək inkişafına dair maliyyə tədbirlərində Fəaliyyət Strategiyasının mühüm vəzifələri vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi yükünün azaldılması kursunun davam etdirilməsi və vergi sisteminin sadələşdirilməsidir.

Energetika Nazirliyi tərəfindən lisenziyaların verilməsi üçün mövcud mexanizm daha da inkişaf etdirilməlidir. Bütün səviyyələrdə vahid informasiya sistemini inkişaf etdirmək lazımdır.

Nəqliyyat sektorunda investisiyaların cəlb edilməsi üçün mövcud mexanizm təkmilləşdirilməlidir. Nəqliyyat sektorunda investisiya mühitinin yaxşılaşdırılması üçün bütün səviyyələrdə vahid informasiya sistemini inkişaf etdirmək və milli nəqliyyat informasiya şəbəkəsini yaratmaq lazımdır. Nəqliyyat sektoruna xarici investisiyaların cəlb edilməsi üçün vahid informasiya sisteminin işlənib hazırlanması, o cümlədən müxtəlif nəqliyyat növləri üzrə inteqrasiya olunmuş və vahid informasiya sisteminin tətbiqi təklif olunur (Musayev A., Zeynalov M., 2021).

Enerji sektoruna xarici investisiyaların cəlb edilməsi və idarə olunması üzrə maliyyə mexanizm daha da inkişaf etdirilməlidir. Xarici investisiyaların cəlb edilməsi üçün mövcud investisiya sistemində müəyyən baza sistemi istifadə olunmalıdır. İşğaldan azad olunan ərazilərdə yarımstansiyaların və əlaqələndirici enerji xətlərin çəkilməsi üçün ölkənin ümumi enerji sistemi ilə əlaqələndirilməlidir. Bunun üçün də dövlət müəyyən büdcə xərcləri ayırmalıdır.

Aqrar sektoru üzrə maliyyə mexanizminin təkminləşdirilməsində investisiya cəlbini artırmalıdır. Rəqabət qabiliyyətinin artırılması, investisiyaların cəlb edilməsi və ixracın yaxşılaşdırılması üçün bütün səviyyələrdə vahid informasiya sisteminin inkişaf etdirilməsi və milli kənd təsərrüfatı informasiya şəbəkəsinin yaradılması zəruri edir. İşğaldan azad edilmiş bölgələrdə aqrar səhmdar cəmiyyətlərinin yaradılması ölkənin digər regionlarında gələcəkdə belə təsərrüfatların yaradılmasında pilot rolunu oynaya bilər.

İşğaldan azad edilmiş rayonlarda turizm və rekreasiya sektoruna investisiyaların cəlb edilməsi üçün mövcud maliyyə mexanizm daha da inkişaf etdirilməlidir. İnvestisiyaların cəlb edilməsi və yeni iş yerlərinin yaradılması üçün bütün səviyyələrdə milli turizm informasiya şəbəkəsinin yaradılmasına ehtiyac var. Turizm, rekreasiya və mədəniyyət sektorlarına investisiya cəlb etmək üçün mövcud mexanizm daha da inkişaf etdirilməlidir. Bütün səviyyələrdə vahid informasiya sisteminin işlənib hazırlanmasına, turizm, istirahət və mədəniyyət üzrə milli informasiya şəbəkəsinin yaradılmasına ehtiyac var.

Tikinti sektoruna xarici investisiyaların cəlb edilməsi üçün ölkədaxili resursların təmin edilməsi üzrə müəyyən tədbirlər aparılmalıdır. Tikintinin maya dəyərini azaltmaqla bütün səviyyələrdə işlər görülməlidir. Düşünürəm ki, mühəndislərlə bağlı ölkədə müəyyən qədər çatışmazlıq var. Bunun üçün də ölkə memarlar, layihəçilər, şəhərsalma istiqamətində çalışan işçiləri xaricdən dəvət etməyə ehtiyac yaranacaqdır. Lakin yerli iş icraçıları və fəhlələr cəhətdən ölkədaxilində kadr potensialı kifayət qədərdir. Bu sahənin inkişafı üçün əsas

problem tikinti materiallarıdır ki, bunu da ölkədaxilində resursları düzgün dəyərləndirərək bu sahənin inkişafını təmin edə bilərik.

Vahid informasiya şəbəkəsini yaratmaq üçün bütün səviyyələrdə vahid məlumat bazası hazırlamaq lazımdır. Hökumətin bütün səviyyələrində xarici investisiyaların cəlb edilməsi üçün vahid informasiya sistemini inkişaf etdirmək və xarici investisiyalar üçün şərait haqqında milli informasiya şəbəkəsini yaratmaq lazımdır (Salayev N., 2021).

Vahid informasiya məkanının yaradılması üçün regional və milli rəqabət qabiliyyətini artıracaq vahid məlumat bazası və yüksək texnologiyalar sektorunda fəaliyyət göstərmək lazımdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat zamanı işğaldan azad olunmuş rayonlarda sektorial inkişaf istiqamətlərinin müəyyənləşdirilmiş, sektorial inkişafda maliyyələşmə mexanizmi probleminin həlli üzrə və bu inkişafın davamlılığı üçün maliyyə nəzarəti mexanizminin formalaşdırılmasında müəyyən təkliflər verilmişdir. Dövlət işğaldan azad olunmuş rayonlarda yaradılacaq müəssisələri müəyyən edərək, yaradılma qaydasını əsaslandırmaqla bu ərazilərdə məhdud iqtisadi resursların məkan və zaman baxımından səmərəli şəkildə bölüşdürülməsini təmin edə bilər. Dissertasiyada sektorial inkişaf istiqamətində gələcək inkişafı strategiyasının ən mühüm vəzifələrindən olan vergi inzibatçılığının təkmilləşdirilməsi, işğaldan azad olunan ərazilərdə vergi güzəştlərinin tətbiqi və vergi sisteminin sadələşdirilməsi məsələrinə diqqət edilmişdir.

Azad olunmuş rayonlarda sektorial inkişaf istiqamətlərində qoyulacaq maliyyələşmə mexanizmi probleminin həlli üzrə müəyyən təkliflər aşağıdakı kimi müəyyən edilmişdir:

1) İlkin olaraq nəqliyyat sektorunda investisiya cəlb etmək üçün mövcud mexanizm təkmilləşdirilməlidir. Azad olunmuş rayonlarda nəqliyyat sektoru üzrə investisiya mühitinin yaxşılaşdırılması üçün bütün səviyyələrdə vahid informasiya sisteminin inkişafı və milli nəqliyyat informasiya şəbəkəsinin yaradılması təklif olunur.

2) Azad edilmiş rayonlarda turizm və rekreasiya sektorlarına investisiyaların cəlb olunması üçün mövcud maliyyə mexanizm daha da inkişaf etdirilməlidir. Bunun üçün də investisiyaların cəlb edilməsi və yeni iş yerlərinin yaradılması üçün bu ərazilərdə ilk əvvəl vergi güzəştləri tətbiq edilməlidir. Turizm, rekreasiya və mədəniyyət sektorlarına investisiya cəlbi üçün mövcud mexanizm daha da inkişaf etdirilməsi üçün tədbirlər planı hazırlanmasını təklif edirəm.

3) İşğaldan azad edilmiş rayonlarda enerji sektoru üzrə xarici investisiyalar cəlb edilməlidir, o cümlədən də sektorun idarə olunması üzrə maliyyə mexanizm

daha da təkminləşdirilməlidir. Bu sektora xarici investisiyaların cəlb olunması üçün mövcud investisiya sistemində müəyyən baza sistemi istifadə edilə bilər. Azad olunan rayonlarda yarımstansiyaların və əlaqələndirici enerji xətlərin çəkilməsi ilə ölkənin ümumi enerji sistemi ilə əlaqələndirilməsinə zərurət var. Bunun üçün də dövlət müəyyən büdcə xərcləri ayırmasını təklif edirəm.

4) Digər vacib sektorlardan olan aqrar sahəsi üzrə maliyyə mexanizminin təkminləşdirilməsində investisiya cəlbini artırmasına ehtiyac var. Belə ki, bu ərazilərdə rəqabət qabiliyyətinin artırılması, kənd təsərrüfatı və heyvandarlıq sahələri üzrə investisiyaların cəlb edilməsi və ixracın yaxşılaşdırılması üçün bütün səviyyələrdə vahid informasiya sisteminin inkişaf etdirilməlidir. Bu sahə üzrə məşğul olmaq istəyən əhaliyə vergi güzəştləri və pay torpaqlar verilməsi bu sektorun daha sürətli inkişafına səbəb ola bilər.

5) Azad olunan rayonlarda xarici investisiyaların tikinti sektoruna cəlb edilməsi ərazidə rəqabət qabiliyyətini artırmağa və tikintinin maya dəyərini azaltmağa kömək edəcəkdir. Bu rayonlarda vahid informasiya şəbəkəsini yaratmaq üçün bütün səviyyələrdə vahid məlumat bazası hazırlamağa ehtiyac var. Tikinti sektoru üzrə dövlətin xarici investisiyaları cəlb etmək üçün vahid informasiya sistemini inkişaf etdirməsini və xarici sərmayənin şərtləri haqqında milli məlumat şəbəkəsini yaratmağını təklif edirəm.

6) Sektorial inkişaf üzrə kiçik biznesin və özəl sahibkarlığın təşviqi bu ərazilərdə strateji amillərdən biridir. Dövlətin bu ərazilərdə kiçik sahibkarlıq subyektlərinin yaradılması və onların həvəsləndirilməsi üçün müəyyən tədbirlər planı gələcək illərdə iqtisadiyyatda vacib müsbət dəyişikliklərə səbəb olacaqdır. Bu ərazilərdə dövlət və nəzarət orqanları tərəfindən kiçik biznesin və özəl sahibkarlığın fəaliyyətinə qeyri-qanuni müdaxilələrin qarşısı alınmalıdır, dövlət orqanlarından sahibkarlıq subyektlərinin qeydiyyata alınması proseduru sadələşdirilməli və inkişaf üçün maliyyə nəzarət mexanizmi qurulmalıdır.

7) Azad olunmuş regionlarda aşağı gəlirli, iqlim şəraitindən asılı, riskli və bazar şərtlə rinə həssas olan sektorlar üzrə maliyyə mexanizmlərindən istifadə olunmalıdır. İlk əvvəl isə bölgənin ərzaq bazarının maddi əsasını təşkil edəcək kənd təsərrüfatı sektorunda dayanıqlı inkişafın təmin olunmasında iqtisadi mexanizmlərdən istifadənin səmərəliliyinin artırılmalıdır. Bu tələblərə cavab olaraq isə iqtisadi mexanizmin tərkib hissəsi olan maliyyə mexanizminin davamlı olaraq təkmilləşdirilməsi üzrə davamlı mühüm addımlar atılmalıdır.

8) Azad olunmuş ərazilərdə iri korporasiyaların formalaşması üzrə prioritet sektorların seçilməsinə üstünlük verilməlidir. Bu çərçivədə isə maliyyələşdirmə tədbirləri, o cümlədən də maliyyə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri həyata keçirilməsinə zərurət var. Qarabağ regionunda iri müəssisələr iqtisadi cəhətdən səmərəli olan sahibkarlıq üzrə xarici rəqabətin mənfi təsirlərinə azaltmalıdır. Bunun üçün də dövlət lazımi tədbirlər planı hazırlamlı və daxili bazarın qorunması üzrə tədbirləri tamamlamalıdır, o cümlədən də istehsalı stimullaşdırmalıdır.

Fikrimcə, azad edilmiş rayonlarda turizm və rekresiya, qida sənayesi, mədənçıxarma, tikinti sənayesi, tibb, metallurgiya, sənaye, taxılçılıq, heyvandarlıq, arıçılıq, üzümçülük, pambıqçılıq, meyvəçilik, quşçuluq, tərəvəzçilik, tikinti və s. kimi bir çox sektorlar üzrə potensial mövcuddur. Qeyd edilən sahələrin inkişafı üçün investisiyaların cəlb olunması istər qeyri-neft idxalın və ixracının artırılması, istərsə də dəyər zəncirlərinin birləşməsi üçün əhəmiyyətli olacaqdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dili


1. Abdullayeva E.T., Vəliyeva R.A., (2020). "Makromaliyyə sabitliyinin möhkəmləndirilməsində büdcə-vergi siyasətinin rolu". In iqtısadi təhlükəsizlik: Mövcud Vəziyyət və Perspektivlər, səh.160-164.
2. Daşsalahlı R.,(5 Mart 2021). "Qarabağ -inkişaf, tərəqqi meydanı", Azərbaycan qəzeti, səh.2.
3. Hüseynov Y., (2013). "Şuşa şəhərinin tarixi", Bakı: "Şuşa" nəşriyyatı, 156 səh.
4. Xalq qəzeti, (8 Avqust, 2021), "Prezident İlham ƏLİYEV: Qarabağın bərpası ilə Azərbaycan qüdrətli dövlət olduğunu bir daha bütün dünyaya nümayiş etdirir", səh 1.
5. Xudiyev N., (16 Sentyabr 2021). "Qarabağ iqtisadi rayonunun maliyyə potensialı onun iqtisadi artım və inkişaf strategiyasının əsasıdır", İqtisadiyyat qəzeti, səh.4.
6. Qocayev İ., (7 Dekabr 2021). "Qarabağ ən çox inkişaf etmiş iqtisadi region halına gətirilir", Şərq qəzeti, səh.6.
7. Quliyeva A.E., (2021). "Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri",Bakı: Kooperasiya, 306 səh.
8. Quliyeva A.E., "Azərbaycanda regional səviyyədə maliyyə təminatı mexanizmlərinin gücləndirilməsi istiqamətləri", Kooperasiya elmi-praktiki jurnal, 2020. №59, səh.110-118.
9. Məhərrəmov M.O. (2020), "Azərbaycanda sənaye müəssisələrinin maliyyə dayanıqlılığının iqtisadi təhlükəsizlik kontekstində strateji əhəmiyyəti". In iqtısadi təhlükəsizlik: Mövcud Vəziyyət və Perspektivlər, səh. 212-217.
10. Musayev A., Zeynalov M., (27 Yanvar 2021) "Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir", Azərbaycan qəzeti, səh 9.

11. Rəşid L., (9 Dekabr, 2020), "İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri", Xalq qəzati, səh.9.

12. Rzayev Q., (2014) "Mühasibat uçotunun beynəlxalq standartları və maliyyə hesabatı". Bakı, 536 səh.

13. Salayev N.,(10 Fevral 2021). "İşğaldan azad olunmuş ərazilərə beynəlxalq investisiya axını başlayır", Bakı Xəbəri qəzeti, səh.4.

14. Sarıyeva İ., (28 Dekabr 2021). "Qarabağ turizmi - bölgələrin sosial-iqtisadi inkişaf mənbələrindən biri". Bakı Xəbəri qəzeti, səh.10.

15. Tağıyev T., (7 Fevral 2020). "Azad ərazilərimizə xarici şirkətlərin yeni axını başlanır". Bakı Xəbəri qəzeti, səh.1.

**İngilis dili**

1. Babaeva Z.S., Shahbanov R.B., Shahbanova S.R., Asekova B.N. and Postnova M.V., "Problems and contradictions of the financial system of the agro-business industry of Russia in contemporary conditions and methodological aspects of their overcoming", 2017, vol. 20, 467-482 p.

2. Babayev M.R,, Babayeva L.O., "Development Directions of The Karabakh Economy Based On The Concept Of Regulation Of Regional Socio-Economic Development", Scıentıfic Collectıon «Interconf», 2021, № 53, p.15-20.

3. Chirkunova E. K., Kireeva E. E., Kornilova A. D., & Pschenichnikova J. S., "Research of instruments for financing of innovation and investment construction projects". Procedia Engineering, 2016, vol.153, p.112-117.

4. Ibrahimov I.H.,(2016). "Economy of agrarian sector". Monograph,Baku, , p. 655.

5. Makhmudov S., "Ways of the Investment Environment Effect in Financing Investment Activities Development". Scientific Research Archive,2020, vol 6. №34, p.2045 – 2053.

6. Mamedov Z. F., Gasimov A. (2020). “Challenges and opportunities of the non-cash payment systems development: global experience and Azerbaijan practice” Economic and Social Development (Book of Proceedings), 60th International Scientific Conference on Economic and Social Development - XX International Social Congress (ISC 2020), Moscow, p. 59-66.

7. World Bank Group, (2020). “Economy Profile Azerbaijan, Doing Business 2020 Indicators”, 67 p.

8. Zhan J., Li S., & Chen X., “The impact of financing mechanism on supply chain sustainability and efficiency”. Journal of Cleaner Productio, 2018, №205, p.407-418.

## Rus dili

1. Собина Н. В., & Логинов М. П. “Механизм и система проектного финансирования”. Вопросы управления, 2017, №45, стр.113-120.

## İnternet resursları

1. AA.com.tr, (29 Sentyabr 2020). “Azerbaycan'ın işgal altındaki toprakları Karabağ”, https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanin-isgal-altindaki-topraklari-karabag/1989594 (giriş tarixi: 21 fevral 2022).

2. Allahverdiqızı F., (10 Dekabr 2020). “Azad edilən ərazilər yerli və xarici investorlar üçün cəlbedici olacaq”. https://vergiler.az/news/economy/11072.html. (giriş tarixi: 21 fevral 2022).

3. Azercell, (23 Oktyabr 2020) “Qarabağda ilk mobil rabitə”, https://www.azercell.com/az/about-us/press-releases/news/qarabagda-ilk-mobil-rabit.html (giriş tarixi: 12 fevral 2022)..

4. Azertag.az, (1 Dekabr 2020). “Rauf Hacıyev: Kəlbəcər rayonunun təbiətinə və abidələrinə vurulmuş ziyan qısa müddətdə hesablanacaq və müvafiq

tədbirlər görüləcək”, https://azertag.az/xeber/Rauf_Haciyev_Kelbecer_rayonunun_tebietine_ve_abideler ine_vurulmus_ziyan_qisa_muddetde_hesablanacaq_ve_muvafiq_tedbirler_gorulec ek-1655635 (giriş tarixi: 21 fevral 2022).

5. Azərbaycan Dövlət İnformasiya Agentliyi, (1 Dekabr, 2020). “İşğaldan azad edilmiş şəhər və kəndlərimiz”, https://azertag.az/xeber/Isgaldan_azad_edilmis_seher_ve_kendlerimiz-1622227 (giriş tarixi: 12 fevral 2022).

6. Azərbaycan Dövlət İnformasiya Agentliyi, (20 Oktyabr 2020). “"Xudafərin” hidroqovşağı üzrə tikinti xərclərinin və dəymiş ziyanın hesablanması məsələlərinə baxılır”, https://azertag.az/xeber/1619175 (giriş tarixi: 12 fevral 2022).

7. Azərbaycan Dövlət İnformasiya Agentliyi, (21 oktyabr 2020) “Vüsal Qasımlı: “Qarabağın böyük iqtisadi potensialı var”, https://azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin _boyuk_iqtisadi_potensiali_var-1620053/ (giriş tarixi: 12 fevral 2022).

8. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, (2019). “İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan”, http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf (giriş tarixi: 21 fevral 2022).

9. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, http://eco.gov.az/.

10. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2017-ci il 27 yanvar tarixli 1717050000006200 nömrəli Qərarı ilə təsdiq edilmişdir. “Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi” https://www.taxes.gov.az/az/page/transfer-qiymetlerinin-mueyyen-edilmesi-ve-tetbiqi-qaydalari.

11. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az.

12. BBC.com, (30 İyul, 2021). "Azərbaycan ATƏT-in Minsk Qrupu ilə əməkdaşlığını bərpa edə bilərmi?", BBC News Azərbaycanca, https://www.bbc.com/azeri/azerbaijan-57859747 (giriş tarixi: 12 fevral 2022).

13. Bizim.Media, (18 Noyabr 2020). "Nazir müavini: "Kəlbəcərdən külli miqdarda qızıl çıxarılıb", https://bizim.media/az/iqtisadiyyat/2963/ (giriş tarixi: 12 fevral 2022).

14. Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az.

15. Dövlət vergi xidməti, "Dövlət Vergi xitməti haqqında ümumi məlumat, https://www.taxes.gov.az/az/page/umumi-melumat", (giriş tarixi: 02.04.2022).

16. Ecoreform.az, "Chto Predveshaet Osvobojdeniye Okkupirovannix Territoriy dlya Ekonomiki Azerbaycana", http://www.ecoreform.az/contact-us (giriş tarixi: 21 fevral 2022).

17. Ibrahimov R., (16 Dekabr 2020). "Voda, les, zoloto- ekonomicheskiy potensial osvobojdennix territoriy Azerbaycana," CCBS.news., https://ccbs.news/ru/article/2351/ (giriş tarixi: 21 fevral 2022).

18. Interfax.com.ua, (14 Dekabr 2020). "Zapasy nefti v Karabakhe otsenivayutsya v 200 mln t, gaza - 250 mlrd kub. m - AN Azerbaydzhana", https://interfax.com.ua/news/economic/709809.html (giriş tarixi: 21 fevral 2022).

19. Nuriyev Q., (10 Oktyabr 2020). "Azerbaijanskiy Klondayk: Armyane Doljni Vozmestit Usherb ot Ekspluatasii Mestorojdeniy v Karabakhe," Report.az, https://report.az/ru/energetika/azerbajdzhanskij-klondajkarmyane-dolzhny-vozmestit-usherb-ot-ekspluatacii-mestorozhdenij-v-karabahe/ (giriş tarixi: 21 fevral 2022).

20. Omarov V., (24 Avqust 2020). "Cruel exploitation of Karabakh and adjacent regions occupied by Armenia,", https://sia.az/az/news/social/822274.html (giriş tarixi: 21 fevral 2022).

21. Preslib.az, “Armyano-Azerbaycanskiy Nagorno-Karabaxskiy Konflikt, Administrative Department of the President of the Republic of Azerbaijan”, 168 s., http://files.preslib.az/projects/azerbaijan/rus/gl7.pdf (giriş tarixi: 21 fevral 2022).

22. Report İnformasiya Agentliyi, (3 May 2021) ““Xudafərin” və “Qız qalası” SES-lərinin tikintisi 2024-cü ilədək yekunlaşacaq”, https://report.az/energetika/xudaferin-ve-qiz-qalasi-ses-lerinin-tikintisi-2024-cu-iledek-yekunlasacaq/ (giriş tarixi: 12 fevral 2022).

23. Report.az, (9 Oktyabr 2020). “Spustya 28 let Voda iz Suqovushana Pushena v Reku Terter”, mövcuddur: https://report.az/ru/karabakh/spustya-28-let-voda-iz-sugovushana-pushena-v-reku-terter/ (giriş tarixi: 21.02.2022).

24. Youtube.com, (1 Dekabr 2020). “Prezident İlham Əliyev Xalqa müraciət edir”, https://www.youtube.com/watch?v=ZGiynYxJXvs&t=1492s (giriş tarixi: 21 fevral 2022).

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** İnnovativ və investisiya fəaliyyətlərinə dövlət maliyyə dəstəkləri ............................19

**Cədvəl 2:** Maliyyə mexanizmlərinin çatızmazlıqları.................................................................34

**Cədvəl 3:** Maliyyə sahəsində böhranının olmasını göstərən amillər ..........................................35

**Cədvəl 4:** Qarabağın iqtisadi inkişafı üçün görülməli işlərin siyahsı .........................................49

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Maliyyələşmə mexanizminin əsas vəzifləri...............................................................14

**Qrafik 2:** Regionlarının iqtisadi və sosial inkişafında üç komponent.........................................56

**Qrafik 3:** Azad olunmuş ərazilərdə sənaye potensialı üzrə 4 istiqamət .....................................61

**Qrafik 4:** İqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların həcmi (mln manatla)..........67